# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ 2025-ci İL ÜZRƏ FƏALİYYƏTİNİN YEKUNLARINA DAİR

# H E S A B A T

***(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2026-cı il 11 mart tarixli 386/1 nömrəli qərarı ilə təsdiq edilmişdir)***

**BAKI – 2026**

**“Dövlətin maliyyə resurslarının qorunub saxlanılması, onlardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün bu sahədə nizam-intizamın möhkəmləndirilməsi, şəffaflığın artırılması və dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi vacibdir. Həmçinin milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır”.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***“Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq”***
***beynəlxalq elmi-praktik konfransının iştirakçılarına***
***ünvanladığı 2023-cü il 15 sentyabr tarixli məktubundan***

# MÜNDƏRİCAT


**ÖN SÖZ** 5

**I. GİRİŞ** 7

**II. AUDİTORLAR PALATASININ DÖVLƏT PROQRAMLARINDA İŞTİRAKI** 17

**III. AUDİTİN TƏŞKİLİ VƏ TƏNZİMLƏNMƏSİ** 25

3.1. Normativ hüquqi və metodiki təminat 26

3.2. Beynəlxalq peşəkar qurumlarla iş 27

3.3. Audit sistemində icra intizamı və daxili nəzarət 28

3.4. Auditor xidməti sahəsində haqsız rəqabətə qarşı mübarizə 29

3.5. Rəqəmsallaşma sahəsində görülmüş işlər 30

3.6. Auditorun sertifikatlaşdırma və icazələrin verilməsi sistemi 32

**IV. AUDİTOR TƏŞKİLATLARININ VƏ SƏRBƏST AUDİTORLARIN 2025-Cİ İLİN YEKUNU ÜZRƏ HESABATLARININ TOPLANMASI, TƏHLİLİ VƏ İCMAL-TÖVSİYƏLƏRİN HAZIRLANMASI BARƏDƏ HESABAT** 33

**V. AUDİTOR XİDMƏTİNİN KEYFİYYƏTİNƏ KƏNAR NƏZARƏT** 52

**VI. AUDİTOR KADRLARININ HAZIRLANMASI VƏ PEŞƏ-İXTİSAS SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ** 58

6.1. Auditor adı almaq üçün imtahanların keçirilməsi 58

6.2. Auditorların ixtisasartırma kurslarının keçirilməsi 59

6.3. Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının təşkili 59

| | | |
|---|---|---|
| **VII.** | **KONFRANSLAR, “DƏYİRMİ MASA”LAR, SEMİNARLAR, USTAD DƏRSLƏRİ VƏ DİGƏR TƏDBİRLƏR** | **59** |
| | 7.1. Konfranslar | **59** |
| | 7.2. “Dəyirmi masa”lar | **66** |
| | 7.3. Seminarlar | **66** |
| | 7.3. Ustad dərsləri | **68** |
| | 7.4. Digər tədbirlər | **68** |
| **VIII.** | **BEYNƏLXALQ ƏLAQƏLƏR** | **83** |
| **IX.** | **AUDİTORLAR PALATASININ ŞURASI YANINDA KOMİTƏLƏRİN VƏ KOMİSSİYANIN, İCTİMAİ NƏZARƏT KOMİTƏSİNİN, QADINLAR ŞURASININ VƏ VETERANLAR ŞURASININ FƏALİYYƏTİ** | **99** |
| **X.** | **AUDİTORLAR PALATASI ŞURASININ FƏALİYYƏTİ** | **100** |
| **XI.** | **AUDİTORLAR PALATASININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ** | **106** |
| **XII.** | **İNFORMASİYA-TƏBLİĞAT VƏ NƏŞRİYYAT FƏALİYYƏTİ** | **109** |

# ÖN SÖZ



Azərbaycan Respublikasının Auditorlar Palatası (bundan sonra “Auditorlar Palatası” adlandırılacaq) ölkə iqtisadiyyatının vacib infrastruktur sahələrindən biri olan auditin inkişafı və beynəlxalq standartlara uyğun qurulması istiqamətində fəaliyyətini 2025-ci il ərzində də ardıcıl şəkildə davam etdirmişdir. Palata öz fəaliyyətini “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamə, “Azərbaycan Respublikasında 2025-ci il ərzində Auditorlar Palatası tərəfindən bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 2025-ci il ərzində Auditorlar Palatası tərəfindən audit xidmətlərinin tənzimlənməsi, audit subyektlərinin peşəkarlıq səviyyəsinin artırılması, etik normalara riayət olunmasının təşviqi, həmçinin audit sahəsində normativ-metodoloji bazanın təkmilləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyət aparılmışdır. Bununla yanaşı, dövlət orqanları, ali təhsil müəssisələri və müvafiq beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılmışdır.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi, həmçinin “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Auditorlar Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə 2025-ci il 13 mart tarixində “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş “Maliyyə nəzarəti – dövlətin və özəl sektorun konstitusion hüquqlarının qorunmasının təminatçısı kimi” mövzusunda konfrans keçirilmişdir. Sözügedən tədbir maliyyə nəzarətinin hüquqi dövlət quruculuğunda, dövlət və özəl sektor münasibətlərində şəffaflığın təmin edilməsində, eləcə də konstitusion hüquqların qorunmasında mühüm rol oynadığını bir daha nümayiş etdirmişdir.

Eyni zamanda, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2025-ci il 23 may tarixində “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Konfransda ölkəmizin aidiyyəti qurumlarının nümayəndələri ilə yanaşı, xarici ölkələrin (İsrail, Pakistan, Latviya) audit və mühasibatlıq qurumlarının rəhbərləri və ƏL/TMM üzrə mütəxəssisləri iştirak etmiş, beynəlxalq təcrübə mübadiləsi aparılmış, risklərin idarə olunması, nəzarət mexanizmlərinin gücləndirilməsi və institusional əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Auditorlar Palatası 2025-ci il ərzində audit sahəsində ictimai etimadın möhkəmləndirilməsi, peşəkar məsuliyyətin artırılması, beynəlxalq standartlara uyğunluğun gücləndirilməsi və audit xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Palatanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər ölkədə maliyyə hesabatlılığının keyfiyyətinin artırılmasına, şəffaflığın genişlənməsinə və iqtisadi idarəetmənin daha səmərəli təşkilinə xidmət etmişdir.

Auditorlar Palatasının 2025-ci ildəki fəaliyyətinə nəzər saldıqda, ölkə auditorlarının, audit mütəxəssislərinin, eləcə də Palatanın əməkdaş və üzvlərinin “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin icrasını bundan sonra da yüksək peşəkarlıqla həyata keçirəcəklərinə, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin qətiyyətlə, ardıcıllıqla və uğurla davam etdirdiyi yeni Azərbaycan quruculuğu strategiyasının reallaşdırılmasına öz töhfələrini verəcəklərinə əminik.

Bu məqamda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aşağıdakı fikirlərini xatırlatmaq yerinə düşərdi:

“…Əminəm ki, Auditorlar Palatası bundan sonra da özünün səmərəli fəaliyyəti ilə ölkəmizdə müstəqil auditin inkişaf və tərəqqisinə, şəffaflığın təmin edilməsinə və daha da artırılmasına öz töhfəsini verəcəkdir”.

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası***
***Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# I. GİRİŞ

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planı auditin təşkili və tənzimlənməsi, rəqəmsallaşma və innovasiyaların tətbiqi, beynəlxalq audit standartlarının tətbiqi, keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, kadr hazırlığı, beynəlxalq əlaqələr, audit sistemində icra intizamı və daxili nəzarət, nəşrlər, konfranslar və seminarlar, informasiya təminatı, palatadaxili tənzimləmə və daxili audit istiqamətlərində Palatanın fəaliyyətini özündə ehtiva etdirmişdir. İş planına uyğun olaraq aşağıdakı istiqamətlər üzrə nəzərdə tutulmuş işlər yerinə yetirilmişdir:

| I | Auditin tənzimlənməsi və təşkili |
|---|---|
| 01<br>Audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair layihələrin hazırlanması və müvafiq qurumlarla razılaşdırılması | 02<br>Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik vəsait və şərhlərin hazırlanması |
| 03<br>Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması | 04<br>Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə hazırlanmış metodik vəsait və müvafiq formalara dair praktik tədbirlərin həyata keçirilməsi |
| 05<br>Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditlərin aparılması | 06<br>Auditor təşkilatlarının və sərbəst auditorların hüquqlarının və qanuni mənafelərinin qorunması üçün müvafiq tədbirlərin həyata keçirilməsi və peşə funksiyalarının həyata keçirilməsi ilə əlaqədar onlarla sifarişçilər arasında yaranan mübahisələrə qanunvericiliyə əsasən baxılması |
| 07<br>2024-cü ildə auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi və bu sahədə tədbirlərin görülməsi | 08<br>Yeni nəsil auditorların bilik və bacarığının artırılması üçün müəyyən müddət ərzində təcrübəli peşəkar auditorlara təhkim edilməsi |
| 09<br>Məcburi audit subyektlərinin auditdən keçmələri ilə bağlı tədbirlərin həyata keçirilməsi | 10<br>Xarici təcrübə nəzərə alınmaqla Audit Komitəsinin nümunəvi Əsasnaməsinin yenidən işlənib hazırlanması |

| 11 | 12 |
| --- | --- |
| Keyfiyyətə kənar nəzarət sahəsində yol verilən nöqsanların profilaktikası və mövcud risklərin aşkar edilməsi məqsədilə təhlilin aparılması və təkliflərin verilməsi | Keyfiyyətə nəzarət üzrə müfəttişlərin peşə səviyyəsinin artırılması üçün xüsusi kursların təşkil edilməsi |
| **13** | **14** |
| Qabaqcıl audit təcrübəsinin öyrənilməsində və tətbiqində Auditorlar Palatası tərəfindən auditorlara mütəmadi olaraq zəruri köməkliyin göstərilməsi | Auditdən keçməyən məcburi audit subyektlərinə göndərilmiş xəbərdarlıq məktublarının yekunu üzrə tədbirlərin görülməsi |

| II | Auditdə rəqəmsallaşma və innovasiyaların tətbiqi |
| --- | --- |
| **01** | **02** |
| Auditorun şəxsi kabineti sisteminin fasiləsiz fəaliyyətinin təmin edilməsi | Auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsi və kibertəhlükəsizliyə nəzarətin həyata keçirilməsi |
| **03** | |
| Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” 2019-cu il 10 yanvar tarixli 881 nömrəli Sərəncamına uyğun olaraq hesabatların Azərbaycan Respublikası Prezident Administrasiyasına təqdim edilməsi | |

| III | Beynəlxalq Audit Standartlarının tətbiqi |
| --- | --- |
| **01** | **02** |
| Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri | IFAC və EFAA tərəfindən təqdim edilmiş Beynəlxalq Standartların layihələrinin müzakirəsində iştirak edilməsi və təkliflərin hazırlanması |
| **03** | |
| Beynəlxalq Audit Standartlarına edilmiş dəyişikliklərin şərhlərinin hazırlanması və Auditorun şəxsi kabineti sistemində və Auditorlar Palatasının saytında yerləşdirilməsi | |

| IV | Keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı |
|---|---|
| **01** 2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması | **02** 2025-ci ildə plan-qrafik üzrə auditin keyfiyyətinə kənar nəzarətin monitorinqinin aparılması |
| **03** 2026-cı ildə auditin keyfiyyətinə kənar nəzarətin aparılmasına dair plan-qrafikin hazırlanması | |

| V | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə |
|---|---|
| **01** Auditor fəaliyyəti üzrə risk qiymətləndirilməsinin metodologiyası və zəruri təhlil istiqamətləri üzrə təkliflərin hazırlanması | **02** Auditor fəaliyyətində aşağıdakı istiqamətlər üzrə risk qiymətləndirməsinin həyata keçirilməsi:<br>- Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizə üzrə;<br>- Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə. |
| **03** Auditorlar Palatası tərəfindən sahəvi risk qiymətləndirilməsinin aparılması və onun nəticələrinə dair hesabatın Koordinasiya Şurasına aşağıdakı sektorlar üzrə təqdim edilməsi:<br>- Maliyyə hesabatlarının auditi üzrə;<br>- Əlaqəli auditor xidmətləri üzrə. | **04** Risk qiymətləndirilməsi prosesində Auditorlar Palatası tərəfindən zəruri statistik və digər məlumatların əldə olunması və Koordinasiya Şurasının işçi qruplarına təqdim edilməsi |
| **05** Koordinasiya Şurası tərəfindən müəyyən edilmiş metodologiya əsasında auditor fəaliyyəti üzrə məlumatların təhlili və müzakirələrinin aparılması, qiymətləndirmə nəticələrinin sənədləşdirilməsi, aşkar olunan risklərin idarə edilməsi, aradan qaldırılması və ya azaldılması məqsədilə təkliflərin hazırlanması və Koordinasiya Şurasına təqdim edilməsi məqsədilə İşçi qrupuna verilməsi | **06** Auditorlar Palatası tərəfindən risk qiymətləndirilməsi nəticəsində aşkarlanan risklərə münasibətdə tədbirlər görülməsinin təmin edilməsi və müvafiq məlumatın Koordinasiya Şurasına təqdim edilməsi |

| | |
|---|---|
| 07<br>Ölkə risk qiymətləndirilməsinə dair hesabatın Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet informasiya ehtiyatlarında dərc edildikdən sonra bütün auditorlara göndərilməsi | 08<br>“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin icrası |
| 09<br>ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər üçün ixtisasartırma kurslarının keçirilməsi | 10<br>Sahəvi risk qiymətləndirməsinin nəticələrinə dair monitorinqlərin aparılması üzrə plan-qrafikin hazırlanması |
| 11<br>ƏL/TMM ilə bağlı monitorinqlərin keçirilməsi | 12<br>Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklərə dair keçirilmiş seminar barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi |
| 13<br>Auditorlar Palatası tərəfindən aşkar edilmiş (ölkə, sahəvi və institusional) cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə zəifliklərə və təhdidlərə dair keçirilmiş təlimlər barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi | 14<br>ƏL/TMM üzrə Auditorlar Palatasının normativ sənədlərinin Pakistan təcrübəsi nəzərə alınmaqla təkmilləşdirilməsi |

## VI Haqsız rəqabətə qarşı mübarizə

| | |
|---|---|
| 01<br>Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin gündəlik təhlili, təkliflərin təqdim edilməsi və müvafiq tədbirlərin görülməsi | 02<br>Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin hazırlanması |
| 03<br>Haqsız rəqabətin vəziyyətinə dair hesabatın təqdim edilməsi | 04<br>Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sisteminin yaradılması və tətbiqi |
| 05<br>Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin işlənib hazırlanması | 06<br>Auditorun şəxsi kabineti sisteminə yanlış məlumat daxil edən auditorlara qarşı ciddi intizam tədbirlərinin görülməsi mexanizminin hazırlanması və tətbiqi |

| |
|---|
| **07**<br>Yeni Etika Məcəlləsinin auditorlar arasında təşviq və riayət olunmasına nəzarət edilməsi |

| VII | Kadr hazırlığı |
|---|---|
| **01**<br>2025-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının İFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla hazırlanması və qrafiki barədə | **02**<br>2025-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris materiallarının İFAC və ACCAın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla hazırlanması |
| **03**<br>Auditorların ixtisasartırma kurslarının keçirilməsi | **04**<br>Auditor adı almaq üçün imtahan proqramının İFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi və qrafikinin hazırlanması |
| **05**<br>Auditor adı almaq üçün imtahanlara hazırlıq kurslarının tədris materiallarının İFAC və ACCAın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla hazırlanması | **06**<br>Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının keçirilməsi |
| **07**<br>Auditor adı almaq üçün imtahanlara hazırlıq kurslarının İFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla keçirilməsi | **08**<br>Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla auditor adı almaq üçün imtahanların keçirilməsi prosesinin təkmilləşdirilməsi |
| **09**<br>Auditor adı almaq üçün imtahanların təşkil edilməsi | **10**<br>Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması |
| **11**<br>Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının keçirilməsi | **12**<br>“Öz etikanızı bilin” (2024-cü il 15 dekabr tarixində təsdiq edilmiş “Yeni Etika Məcəlləsi”nin tələblərinin şərhi istiqamətində) aylıq video rubrikanın hazırlanması və Palatanın internet səhifəsində yerləşdirilməsi |

| VIII | Beynəlxalq əlaqələr |
| --- | --- |
| 01<br>Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi | 02<br>Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin icrasının təmin edilməsi |
| 03<br>Beynəlxalq və xarici audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi | 04<br>Beynəlxalq və xarici audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi |
| 05<br>Beynəlxalq təşkilatlar və peşəkar qurumlar tərəfindən təqdim edilmiş materialların öyrənilməsi, müzakirəsi və tətbiqi | 06<br>Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi |
| 07<br>Əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında nəzərdə tutulmuş tədbirlərdən irəli gələn vəzifələrin icrasının təmin edilməsi | |

| IX | Daxili nəzarət |
| --- | --- |
| 01<br>Auditorlara şirkətdaxili nəzarətin həyata keçirilməsi üzrə metodik yardımın həyata keçirilməsi | 02<br>Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqi və təhlili |
| 03<br>Palata üzvlərinin fəaliyyətinin auditorun şəxsi kabineti sistemində monitorinqinin aparılması | 04<br>Palatanın üzvləri tərəfindən icbari sığortaya dair qanunvericiliyin tələblərinin monitorinqi |
| 05<br>Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları ilə Palata üzvlərinə göndərilmiş məktubların və verilmiş tapşırıqların icra vəziyyətinin monitorinqi | 06<br>Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları ilə Palata üzvlərinə göndərilmiş məktubların və verilmiş tapşırıqların icra vəziyyətinin monitorinqi |

| | |
|---|---|
| **07**<br>Palatada fəaliyyət göstərən “Dəyirmi masa”, təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi | **08**<br>Auditor təşkilatlarına daxili nəzarət sisteminin COSO modelinin tətbiqi istiqamətində əməli köməkliyin göstərilməsi |
| **10**<br>Auditorlar Palatasının üzvlərinin fəaliyyətləri barədə illik hesabatlarının öz vebsaytlarında dərc olunmasına nəzarətin həyata keçirilməsi | **11**<br>Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi üzrə monitorinqinin aparılması və nəticəsinə dair təkliflərin hazırlanması |
| **12**<br>İcazəli auditoru olmayan auditor təşkilatlarının fəaliyyətinin monitorinqi | |

| **X** | **Nəşrlər, konfranslar, “dəyirmi masa”lar, ustad dərsləri və seminarlar** |
|---|---|
| **01**<br>Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri | **02**<br>Auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin və seminarların təşkili |
| **03**<br>Sorğu məlumat kitabçasının hazırlanması və nəşri | |

| **XI** | **İnformasiya təminatı** |
|---|---|
| **01**<br>Auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatların yenilənməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi | **02**<br>Auditorlar Palatası Şurasının qərarlarının, Palata sədrinin əmr və sərəncamlarının və digər sənədlərin Palatanın internet səhifəsində yerləşdirilməsi (zəruri hallarda ingilis və rus dillərində) |
| **03**<br>Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər və sosial şəbəkələr vasitəsilə müntəzəm məlumatlandırılması | **04**<br>Yerli və xarici informasiya məlumatlarının gündəlik təhlili, sistemləşdirilməsi, ümumiləşdirilməsi, müvafiq icmal materiallarının hazırlanması və təşviqi |

| 05 | 06 |
| --- | --- |
| “Auditorun səsi” mövzusunda onlayn müzakirənin təşkili | Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması |
| **07** Auditorlar Palatasının internet səhifəsində “auditorun səsi” bölməsinin yaradılması və fəaliyyətinin təşkili | |

| **XII** | **Palatadaxili tənzimləmə** |
| --- | --- |
| **01** Auditorlar Palatasında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair 1 və 2 nömrəli illik hesabat formalarının hazırlanıb təqdim edilməsi | **02** Azərbaycan Respublikası Prezidentinin “Dövlət Nəzarəti İnformasiya Sistemi”nin yaradılması haqqında 2021-ci il 30 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Nəzarəti İnformasiya Sisteminin iş Qaydası”ndan irəli gələn məsələlərin icrası və nəticələri barədə məlumatların hazırlanması və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməsi |
| **03** Alınmış protokol, qərar (qərardad) blanklarının tətbiqi nəticəsində hesablanmış və dövlət büdcəsinə ödənilmiş cərimələr barədə rüblük məlumatın aidiyyati üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsi | **04** İstifadə edilmiş, itirilmiş, zədələnmiş ((korlanmış) protokol, qərar (qərardad) blankları barədə illik (yarımillik)) hesabatın Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsi |
| **05** Auditorlar Palatasının struktur bölmələrinin 2024-cü il üzrə iş fəaliyyətinin yekununa dair hesabatlarının hazırlanması | **06** Auditorlar Palatasının maliyyə hesabatlarının auditinin aparılması üçün auditorun seçilməsi |
| **07** Auditorlar Palatasının 2024-cü il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin təşkili | **08** Auditorlar Palatasında mühasibat uçotunun və hesabatlılığın mövcud qanunvericiliyə uyğun aparılması |

| | |
|---|---|
| **09**<br>Auditorlar Palatasının əmək, material və maliyyə ehtiyyatlarının təsdiq edilmiş normativlərə və smetalara müvafiq olaraq istifadəsini, əmlakın mövcudluğunu və hərəkətini, Palatanın mülkiyyət hüququ və öhdəlikləri üzərində nəzarətin təmin edilməsi (Palatanın əmlakının inventarizasiyasının təşkili) | **10**<br>Auditorlar Palatasının Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq öhdəliyi olduğu hesabatların keyfiyyətlə hazırlanması və müəyyən edilmiş müddətlərdə müvafiq orqanlara təqdim edilməsi |
| **11**<br>Auditorun şəxsi kabinetində, Palataya odənilməli olan üzvlük haqqı borclarının işlənilməsi | **12**<br>Üzvlük haqqının ödənilməsi üçün, hesabfakturaların hazırlanması və Auditor təşkilatları, sərbəst auditorlara göndərilməsi |
| **13**<br>Palatanın əmlakı olan bütün texniki vasitələrin qorunub saxlanılmasını və onların fasiləsiz işləməsinin təmin edilməsi | **14**<br>Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması |
| **15**<br>Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmiş materiallara dair rüblük arayışın və tövsiyələrin hazırlanması | **16**<br>Auditorlar Palatasında il ərzində keçirilən tədbirlərdə iştirak və onlar barədə məlumatların ictimaiyyətə çatdırılması |
| **17**<br>Auditorlar Palatasının struktur bölmələrinin 2025- ci il üzrə fəaliyyəti barədə rüblük hesabatların hazırlanması, onların təhlili və tövsiyələrin verilməsi | **18**<br>Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının vaxtında ödənilməsinin təşkil |
| **19**<br>Vətəndaşların qəbulunun, ictimai nəzarətin, Apelyasiya komissiyasının fəaliyyətinin təşkili, daxil olmuş ərizə və şikayətlərə baxılması | **20**<br>2026-cı il üçün Auditorlar Palatasının iş planının hazırlanması |
| **21**<br>Auditorlar Palatası Şurası yanında Komissiya və Komitələrin fəaliyyətinə dair hesabatının hazırlanıb təqdim edilməsi | |

| XIII | Daxili audit |
|---|---|
| **01**<br>Auditorlar Palatasında daxili auditin həyata keçirilməsi | **02**<br>Palata sədrinin xidməti materiallarının saxlanılmasını və arxivləşdirilməsini təmin edilməsi |

| | |
|---|---|
| 03<br>Palatanın struktur bölmələri üzrə onların əsasnamə funksiyalarının və işçilərin vəzifə təlimatlarının icrasının monitorinqi üzrə təklif və tövsiyələrin hazırlanıb Palata sədrinə təqdim edilməsi | 04<br>Palatanın əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlətin kommersiya sirrinin, o cümlədən konfidensial informasiyanın qorunmasının təmin edilməsi |
| 05<br>Daxil olmuş müraciət və məlumatlar əsasında, habelə öz təşəbbüsü ilə Palatanın struktur bölmələrində daxili nəzarət qaydasında monitorinq, daxili audit (kompleks və ya tematik yoxlamalar) və xidməti araşdırma tədbirlərinin həyata keçirilməsi | 06<br>Palata Şurasına işlərin vaxtında təqdim olunmasına nəzarətin həyata keçirilməsi |
| 07<br>Palata Şurasının üzvlərinə və rəyçilərə Şura materiallarının vaxtında göndərilməsinə və rəylərin alınmasına nəzarətin həyata keçirilməsi | 08<br>Palata Şurasının qərarlarının üç iş günü müddətində rəsmiləşdirilməsinə nəzarətin həyata keçirilməsi |
| 09<br>Palata əməkdaşlarının yol verdikləri korrupsiya ilə əlaqədar nöqsanlara dair daxil olmuş məlumatlar əsasında daxili nəzarət tədbirlərinin həyata keçirilməsi və nəticələri barədə Palatanın rəhbərliyinə təkliflərin verilməsi | 10<br>Palata əməkdaşlarının əmək fəaliyyətlərinin qiymətləndirilməsi məqsədilə təkliflərin verilməsi |
| 11<br>Auditorlar Palatasının 2025-cü il üzrə daxili audit hesabatının hazırlanması | |

## II. AUDİTORLAR PALATASININ DÖVLƏT PROQRAMLARINDA İŞTİRAKI VƏ ŞƏFFAFLIĞIN TƏMİN EDİLMƏSİ

2025-ci ildə Auditorlar Palatası bir sıra mühüm əhəmiyyət kəsb edən Dövlət Proqramlarının icrasında iştirak etmişdir. O cümlədən:

- **Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 04 aprel tarixli 3199 nömrəli sərəncamının 2.1-ci bəndinin tələbinə uyğun olaraq həmin sərəncamla təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin Auditorlar Palatası tərəfindən 2025-ci ildə yerinə yetirilməsinə dair**

2025-ci ildə Auditorlar Palatası tərəfindən “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı aşağıdakı işlər görülmüşdür:

**2.4. Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbul prosedurlarında şəffaflığın artırılması və bu sahədə ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlər görülməsi**

Azərbaycan Respublikasında auditor xidmətinin dövlət tənzimlənməsinin təşkilinə, auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərinin müdafiəsinə, auditin aktual məsələlərinin və problemlərinin həllinə, habelə Palatanın struktur bölmələrinin və Palatanın Şurası yanında komitələrin və komissiyanın fəaliyyətlərində yaranan çatışmazlıqların həllində onlara kömək göstərilməsi məqsədilə Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsi fəaliyyət göstərir.

**2.6. Yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi**

Azərbaycan Respublikasının Prezidentinin 09 avqust 2021-ci il tarixli 1415 nömrəli ““e-KOB evi” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Fərmanının 4-cü “Dövlət orqanları (qurumları) bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 1.2-ci bəndinə uyğun olaraq məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini və həmin Əsasnamənin 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulan xidmətlərin bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq göstərilməsini təmin etmək məqsədilə aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası üçün zəruri tədbirlər görsünlər” yarımbəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən Azərbaycan Respublikası Prezidentinin “Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında” 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 3-cü yarımbəndindən və Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli “Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin

fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 17-ci "auditor adı almaq üçün ixtisas imtahanının nəticələrini təsdiq edən sənədin verilməsi" bəndindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə "İcazələrin və Sertifikatların elektron sistemi" yaradılmışdır.

Həmin sistemdə aşağıdakı xidmətlər öz əksini tapmışdır:

1) Auditor adı almaq üçün müraciət;
2) İcazələrin verilməsi üçün müraciət;
3) İcazələrin dayandırılması üçün müraciət;
4) İcazənin bərpası üçün müraciət;
5) İcazənin ləğvi üçün müraciət;
6) Keçirilmiş imtahanın nəticələri ilə tanış olmaq;
7) Əldə edilmiş serfikatlar barədə məlumat.

Həmin sistem tam olaraq işlək vəziyyətdədir və "https://audit.gov.az/Az/page/494" səhifəsində "Xidmətlər üçün onlayn müraciət" adı altında yerləşir. Həmçinin həmin sistem "https://digital.login.gov.az/auth" sisteminə inteqrasiya edilmiş və sistemə asan loqin sistemi ilə giriş təmin edilmişdir.

Hazırda "İcazələrin və Sertifikatların elektron sistemi"nin "https://e-kob.gov.az/" və "https://e-gov.az/" portallarına inteqrasiya edilməsi istiqamətində aidiyyati üzrə işlər aparılır.

**2.8. Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı fəaliyyətin sürətləndirilməsi**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 01 avqust tarixli 2279 nömrəli "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Fərmanının 1-ci hissəsinə əsasən, Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən 2024-cü il 14 fevral tarixli 3-27/2-104/2024 nömrəli "Rəqəmsal Sənəd dövriyyəsi altsisteminə inteqrasiya haqqında" Auditorlar Palatasına ünvanlanan müraciət nəzərə alınaraq Auditorlar Palatası sədrinin 2024-cü il 28 iyun 1/22 nömrəli "Azərbaycan Respublikasının Auditorlar Palatasının Rəqəmsal Sənəd dövriyyəsi altsisteminə inteqrasiyası barədə" Sərəncamına uyğun olaraq Auditorlar Palatasının 2024-cü il 01 avqust tarixindən Rəqəmsal Sənəd dövriyyəsi altsisteminə inteqrasiyası həyata keçirilməsi təmin edilmişdir. Hal-hazırda Palatada bütün sənəd mübadiləsi "Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi" vasitəsi ilə həyata keçirilir.

**2.10. Özəl sektorda şəffaflığın artırılması məqsədilə həmin sahədə şəffaflıq üzrə beynəlxalq standartların tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülməsi**

İcrası təmin edilmişdir. (Ətraflı məlumat hesabatın III bölməsinin 3.1-ci altbölməsində qeyd olunmuşdur).

**2.17. Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı illik hesabatların hazırlanması və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 04 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci ildə yerinə yetirilməsinə dair hazırlanmış hesabatın 2025-ci il 22 dekabr tarixli 10-1/2-718/2025 nömrəli məktub ilə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına göndərilməsi təmin edilmişdir.

**3.3. Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin, keyfiyyətinin daha da artırılması, dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsində şəffaflığın yüksəldilməsi**

Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamənin 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Auditorlar Palatası auditor xidmətinin dövlət tənzimlənməsini və inkişafını təşkil edən, mülkiyyətçilərin əmlak hüquqlarını, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə edən, öz fəaliyyətində respublikanın qanunvericilik aktlarından irəli gələn tələblərə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən riayət olunmasına nəzarət edən müstəqil maliyyə orqanıdır. Auditorlar Palatası özü dövlət büdcəsindən heç bir vəsait almır.

**3.4. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə FATF (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi**

"Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik" hazırlanmış və Auditorlar Palatası Şurasının 2024-cü il 29 dekabr tarixli 372/4 nömrəli qərarı ilə təsdiq edilmişdir. "Plan-qrafik"ə əsasən ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu tərəfindən 2025-ci il ərzində 43 auditor təşkilatının və sərbəst auditorun ƏL/TMM Qanununun tələblərinə uyğunluğu yoxlanılmış, pozuntuya yol vermiş auditorlar barəsində müvafiq tədbirlərin görülməsi təmin edilmiş və aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün müvafiq tövsiyələr verilmişdir. Monitorinqlər nəticəsində aparılmış risk qiymətləndirilməsinin nəticəsində "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2026-ci il üçün Plan-qrafik" hazırlanmış və Auditorlar Palatası Şurasının 2025-ci il 15 dekabr tarixli 383/4 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**4.2. Dövlət xidmətlərinin elektronlaşdırılması və dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında inteqrasiyanın təmin edilməsi üzrə işlərin sürətləndirilməsi, kağız əsaslı xidmətdən məlumat əsaslı xidmətə keçirilməsinin təşkil olunması ilə bağlı fəaliyyətin təmin edilməsi**

Azərbaycan Respublikası Prezidentinin "Dövlət Nəzarəti İnformasiya Sistemi"nin yaradılması haqqında 2021-ci il 30 yanvar tarixli Fərmanını ilə təsdiq edilmiş "Dövlət Nəzarəti İnformasiya Sisteminin iş Qaydası"ndan irəli gələn məsələlərin icrası və nəticələri barədə məlumatlar mütəmadi olaraq hazırlanır və Dövlət Nəzarəti İnformasiya Sistemi vasitəsilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilir.

**4.3. Şəffaflığın artırılması məqsədilə dövlət xidmətinin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı, qanunvericiliklə müəyyən edilmiş ödənişlərin məbləği barədə məlumatların dövlət xidmətləri ilə bağlı vahid məlumat portalında və aidiyyəti dövlət orqanlarının (qurumlarının) internet səhifələrində yerləşdirilməsi**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş ""İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları"nın 2 nömrəli əlavəsinə əsasən hazırlanmış 2024-cü ilin ikinci yarımilliyi və 2025-ci ilin birinci yarımilliyi ərzində alınmış, istifadə edilmiş, itirilmiş, zədələnmiş (korlanmış) protokol, qərar (qərardad) blankları barədə hesabat hazırlanmış və 2025-ci il 14 yanvar və 09 iyul tarixlərində Maliyyə Nazirliyinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanlanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları"nın 1.2-ci bəndinə əsasən hazırlanmış və Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən alınmış protokol, qərar (qərardad) blanklarının tərtibi nəticəsində hesablanmış və dövlət büdcəsinə ödənilmiş cərimələr barədə 2024-cü ilin IV rübü və 2025-ci ilin I, II və III rübləri üzrə məlumat hazırlanmış və 2025-ci il 15 yanvar, 08 aprel, 09 iyul və 13 oktyabr tarixlərində Maliyyə Nazirliyinə təqdim edilmişdir.

**4.9. Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi, bu prosesə vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların cəlb edilməsi**

2025-ci il ərzində 310 halda Palatanın internet səhifəsində və sosial şəbəkələrində məlumat yerləşdirilmişdir:

- Xəbərlər: 49
- Elanlar: 24
- Mətbuat: 36
- Əmr, şura qərarları, hesabat və sərəncamlar:35
- Digər bölmələr: 18

- Facebook sosial şəbəkəsində: 41
- İnstagram  sosial şəbəkəsində: 41
- Linkedin: 25
- X:27
- Youtube:14.

**5.1. Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi və 5.4. Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi**

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə aparılan 5-ci Dəyərləndirmə raundunun davamı olaraq, 2025-ci ilin 16-19 mart tarixlərində OECD-nin müvafiq ekspert heyətinin respublikamıza səfəri və səfər çərçivəsində aidiyyatı dövlət qurumları, qeyri-hökumət təşkilatları, həmçinin vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşdə Auditorlar Palatasının nümayəndələri iştirak etmişdirlər.

İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi tərəfindən daxil olmuş 2025-ci ilin 09 iyul tarixli dəvət məktubuna uyğun olaraq Fransanın Paris şəhərində onlayn formada keçirilmiş rəhbər qrupu üçün 30-cu plenar iclasında Auditorlar Palatasının nümayəndəsi iştirak etmişdir.

Avropa Şurası (AŞ) və Avropa İttifaqının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq birgə proqramının üçüncü mərhələsi (PGG3) çərçivəsində “Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə” layihəsinin icrası ilə əlaqədar Rəhbər Komitənin keçirilmiş 2025-ci il 19 dekabr tarixli iclasında Auditorlar Palatasının nümayəndəsi iştirak etmişdir.

**5.2. Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması**

Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Auditorlar Palatasının rəhbərliyinin, Palata Şurasının və Palatanın üzvü olan sərbəst auditorların və auditor təşkilatlarının qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən verdikləri şikayətlərə, habelə auditor adı almaq üçün imtahanın nəticələri barədə namizədlərin verdikləri şikayətlərə baxılması üçün yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurası fəaliyyət göstərir.

**5.3. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da genişləndirilməsi, qabaqcıl antikorrupsiya təcrübələrinin öyrənilməsi ilə bağlı tədbirlərin davam etdirilməsi**

İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsi tərəfindən keçirilmiş (zoom vasitəsi ilə) görüşlərində Palata nümayəndələrinin iştirakı müntəzəm olaraq təmin edilir.

**6.3. Sahibkarlıq sahəsində yoxlamaların aparılması ilə bağlı sui-istifadə və korrupsiya hallarının qarşısının alınması məqsədilə sahibkarlıq subyektləri üçün bu sahədə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirici tədbirlərin keçirilməsi**

Auditorlar Palatası tərəfindən Auditin keyfiyyətinə nəzarət və keyfiyyətin idarə edilməsi sahəsinə xüsusi diqqət yetirilir. 2025-ci il ərzində ümumi olaraq 55 monitorinq həyata keçirilmiş, 43 monitorinqin nəticəsi Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi komitəsində qiymətləndirilmişdir. Nəticə olaraq monitorinq zamanı korrupsiya hallarının gizlədilməsi və yaxud həyata keçirilməsi aşkar olunmamışdır.

Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların maarifləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci ildə keçirilməsi nəzərdə tutulan tədbirlərin (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və s.) aylar üzrə Qrafik"inə uyğun olaraq 2025-ci il ərzində Auditorlar Palatası tərəfindən Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün seminarlar, "dəyirmi masa"lar və ustad dərsləri keçirilmişdir (Ətraflı məlumat hesabatın VIII bölməsində qeyd olunmuşdur).

**6.9. Kütləvi informasiya vasitələrindən, o cümlədən dövlət orqanlarının (qurumlarının) və bələdiyyələrin öz internet və sosial şəbəkə səhifələrindən istifadə etməklə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi təcrübəsinin genişləndirilməsi, bu sahədə müxtəlif videoçarxların, bukletlərin hazırlanması və onların əhali arasında geniş yayılmasının təşviq edilməsi**

İcrası təmin edilmişdir. (Ətraflı məlumat hesabatın VIII-IX bölmələrində qeyd olunmuşdur).

- **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli sərəncamının 2.2-ci bəndinin tələbinə uyğun olaraq həmin sərəncamla təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin Auditorlar Palatası tərəfindən 2025-ci ildə yerinə yetirilməsinə dair**

2025-ci ildə Auditorlar Palatası tərəfindən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı aşağıdakı işlər görülmüşdür:

**8.2.1.3. Nəzarət orqanları tərəfindən sahəvi risk qiymətləndirilməsi aparılmasının təmin edilməsi**

"Milli Fəaliyyət Planı"nın 8.2.1.3-cü bəndinin icrasının təmin edilməsi məqsədilə "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün

Plan-qrafik" hazırlanmış və Auditorlar Palatası Şurasının 2024-cü il 29 dekabr tarixli 372/4 nömrəli qərarı ilə təsdiq edilmişdir. Plan-qrafikin 2025-ci il 30 yanvar tarixli 10-1/2-33/2025 nömrəli məktubla Koordinasiya Şurasına və 2025-ci il 31 yanvar tarixli 10-1/2-42/2025 nömrəli məktubla Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməsi təmin edilmişdir. "Plan-qrafik"ə əsasən monitorinqlər keçirilmiş və risk qiymətləndirilməsi aparılmışdır.

**8.2.1.4. Keçirilmiş risk qiymətləndirilməsinin nəticələrinin Koordinasiya Şurasına təqdim edilməsi**

"Milli Fəaliyyət Planı"nın 8.2.1.4-cü bəndinin icrasının təmin edilməsi məqsədilə aparılmış risk qiymətləndirilməsinin nəticəsində "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2026-ci il üçün Plan-qrafik" hazırlanmış və Auditorlar Palatası Şurasının 2025-cü il 15 dekabr tarixli 383/4 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**8.2.2.2. Nəzarət orqanlarının əməkdaşları üçün sahəvi risklərə uyğun olaraq illik təlim planına əsasən təlimlər keçirilməsi və 8.2.3.1. Nəzarət orqanları tərəfindən müəyyən edilmiş risklərə (ölkə, sahəvi və institusional) uyğun olaraq illik təlim planına əsasən təlimlər keçilməsi**

"Milli Fəaliyyət Planı"nın 8.2.2.2-ci bəndinin icrasının təmin edilməsi məqsədilə 2025-ci il ərzində Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklərə dair 6 seminar, 1 təlim, 27 kurs və 1 beynəlxalq elmi-praktik konfrans keçirilmiş, 1 Beynəlxalq elmi-praktik konfransın materiallar Toplusu və 1 ədəd kitab nəşr etdirilmişdir (Ətraflı məlumat hesabatın VIII bölməsində qeyd olunmuşdur).

**8.2.2.3. Keçirilmiş təlimlər barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi**

"Milli Fəaliyyət Planı"nın 8.2.2.3-cü bəndinin icrasının təmin edilməsi məqsədilə tədbirlərin keçirilməsi barədə məlumat bu hesabatın Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməsi ilə təmin edilmişdir.

**8.2.3.2. Keçirilmiş təlimlər barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi**

"Milli Fəaliyyət Planı"nın 8.2.3.2-ci bəndinin icrasının təmin edilməsi məqsədilə tədbirlərin keçirilməsi barədə məlumat bu hesabatın Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməsi ilə təmin edilmişdir.

**8.2.5.2. Nəzarət orqanları tərəfindən aparılan nəzarət yoxlamalarının sayı, əhatə dairəsi, tətbiq edilən sanksiyaların sayı və xarakteri barəsində statistik məlumatların Koordinasiya Şurasına təqdim edilməsi**

"Milli Fəaliyyət Planı"nın 8.2.5.2-ci bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası Şurasının 2024-cü il 29 dekabr tarixli 372/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"ə əsasən

ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu tərəfindən 2025-ci il ərzində 47 auditor təşkilatının və sərbəst auditorun ƏL/TMM Qanununun tələblərinə uyğunluğu yoxlanılmışdır. Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğunun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqlərinin nəticəsində heç bir sanksiya tətbiq edilməmişdir.

**8.2.6.1. Nəzarət orqanları tərəfindən nəzarət yoxlamalarının gedişində şübhəli hallara dair məlumatların müəyyən edilməsinə və MMX-yə təqdim edilməsinə dair sistematik təhlillər aparılması, əldə olunmuş nəticələr əsasında şübhəli hallara dair məlumatlarla bağlı çatışmazlıqların aradan qaldırılması sahəsində səmərəli mexanizmlərin müəyyən edilməsi**

“Milli Fəaliyyət Planı”nın 8.2.6.1-ci bəndinin icrasının təmin edilməsi məqsədilə tərtib edilmiş hesabatlarda auditor təşkilatları və sərbəst auditorlar tərəfindən ƏL/TMM Qanununun tələblərinə əməl edilməməsi halları aşkar edilməmişdir. Bu səbəbdən Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim edilməmişdir.

Auditorlar Palatasının 2026-cı il üzrə İş Planının “Vətəndaşların qəbulunun, ictimai nəzarətin, Appelyasiya komissiyasının fəaliyyətinin təşkili, daxil olmuş ərizə və şikayətlərə baxılması” bəndinə uyğun olaraq Auditorlar Palatasına 80 vətəndaş müraciəti daxil olmuşdur. Müraciətlərin 37-i dövlət orqanlarından və digər qurumlardan daxil olan müraciətlər, 43-i isə bilavasitə vətəndaşlardan daxil olan müraciətlərdir. Müraciətlərdən 18-i həll edilmiş, 4-ü qismən təmin edilmiş, 10-u əsassız sayılmış, 41-nə müvafiq izahat verilmiş və 7-i icradadır.

• Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları”nın 2 nömrəli əlavəsinə əsasən hazırlanmış 2024-cü ilin ikinci yarımilliyi və 2025-ci ilin birinci yarımilliyi ərzində alınmış, istifadə edilmiş, itirilmiş, zədələnmiş (korlanmış) protokol, qərar (qərardad) blankları barədə hesabat hazırlanmış və 2025-ci il 14 yanvar və 09 iyul tarixlərində Maliyyə Nazirliyinə təqdim edilmişdir.

• Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanlanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları”nın 1.2-ci bəndinə əsasən hazırlanmış və Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən alınmış protokol, qərar (qərardad) blanklarının tərtibi nəticəsində hesablanmış və dövlət büdcəsinə ödənilmiş cərimələr barədə 2024-cü ilin IV rübü və 2025-ci ilin I, II və III rübləri üzrə məlumat hazırlanmış və 2025-ci il 15 yanvar, 08 aprel, 09 iyul və 13 oktyabr tarixlərində Maliyyə Nazirliyinə təqdim edilmişdir.

Auditorlar Palatasının səlahiyyətli dövlət orqanları ilə əməkdaşlıq əlaqələri dövlət sifarişləri formasında 2025-ci ildə də davam etdirilmişdir. Belə ki, həmin orqanlardan daxil olmuş 95 müraciət əsasında yoxlamaların aparılmasına sərbəst auditorlar və auditor

təşkilatlarının nümayəndələri cəlb olunmuşdur. Bu müraciətlərin 81-i icra edilmiş və 14-ün icrası davam etdirilir.

## III. AUDİTİN TƏŞKİLİ VƏ TƏNZİMLƏNMƏSİ

“Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə müvafiq olaraq 2025-ci ildə Auditorlar Palatasının əsas vəzifəsi olan mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasını təmin etmək məqsədilə respublikada auditor xidmətinin təşkili və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirləri həyata keçirməkdə davam etmişdir.

Əsasnamədə göstərilən funksiyalar üzrə 2025-ci il ərzində aşağıdakı işlər görülmüşdür:

- 39 auditor təşkilatına və 13 sərbəst auditora müvafiq icazə verilmiş, 21 auditor təşkilatının və 2 sərbəst auditorun icazəsinin müddəti uzadılmış, 11 auditor təşkilatı və 14 sərbəst auditor fəaliyyətini dayandırmış, 4 auditor təşkilatının və 1 sərbəst auditorun icazələri bərpa edilmişdir.

- Palata tərəfindən auditin təşkilinə, tənzimlənməsinə və aparılmasına dair təlimatlar, tövsiyələr və metodik göstərişlər, auditor xidməti göstərilməsinin forma və metodlarına dair normativ sənədlər hazırlanmışdır.

- “Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi“ bəndinin və Palata sədrinin “Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorlara əməli köməklik göstərilməsi barədə” 2019-cu il 01 fevral tarixli 04 nömrəli Əmrinin icrasını təmin etmək məqsədilə, Auditorlar Palatası Şurasının 2022-ci il 24 noyabr tarixli 350/2 nömrəli “Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsi üçün proqramın təkmilləşdirilməsi” qərarı ilə müvafiq dəyişikliklər edilərək yenidən təsdiq edilmiş “Yeni fəaliyyətə başlayan auditorlara əməli kömək göstərilməsinə dair Proqrama” uyğun olaraq, 2025-ci il üzrə 39 auditor təşkilatına, 13 sərbəst auditora əməli köməklik göstərilmiş və onlar lazımi metodik materiallarla təmin edilmişdir.

- 2024-cü ildə auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi və bu sahədə tədbirlərin görülməsi məqsədilə təsərrüfat subyektlərinə məcburi auditdən keçmələri ilə bağlı məktublar göndərilmişdir.

- Palata Şurasının 2025-ci il 17 sentyabr tarixli 379/1 nömrəli “2025-ci il üzrə Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin I yarımilliyi üzrə hesabatların toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabata dair 2025-ci ilin I yarımili ərzində Azərbaycan Respublikasında fəaliyyət göstərən 2024-cü il üzrə İllik maliyyə (mühasibat) hesabatının düzgünlüyünü müstəqil (kənar) auditora təsdiq etdirməyən bələdiyyələrin

auditdən keçmə məsələsinin təmin edilməsi üçün regional göstəricilər hazırlanaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi R.Məmmədova və Naxçıvam muxtar Respublikasının Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin rəisi X.Eyvazova göndərilmişdir.

- Yeni nəsil auditorların bilik və bacarığının artırılması üçün müəyyən müddət ərzində təcrübəli peşəkar auditorlara təhkim edilməsi məqsədilə 2025-ci ildə auditor fəaliyyətinə başlamış auditor təşkilatları və sərbəst auditorların siyahısı hazırlanaraq onlar təcrübəli auditorlara təhkim olunmuşdur.

- Palata Şurasının 2025-ci il 28 fevral tarixli 374/4 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər" Palatanın rəsmi internet səhifəsində yerləşdirmişdir.

- Palata Şurasının 02 may 2025-ci il tarixli 376/2 nömrəli "İctimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə müraciət məktubunun layihəsinin hazırlanması və göndərilməsi barədə" təsdiq edilmiş Qərarın müvafiq bəndinə əsasən ictimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə müraciət göndərilmişdir.

Məcburi audit subyektləri olan təsərrüfat subyektləri öz illik maliyyə hesabatlarını müstəqil (kənar) auditor tərəfindən təsdiq etdirmələri barədə elan hazırlanmış, Palatanın internet səhifəsində yerləşdirmiş və müvafiq olaraq "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Vergilər" və "İqtisadiyyat" qazetlərində dərc etdirilmişdir.

### 3.1. Normativ hüquqi və metodiki təminat

Azərbaycan Respublikası qanunvericiliyinə və Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) üzvlük tələblərinə müvafiq olaraq 2025-ci ildə Auditorlar Palatası tərəfindən bir sıra normativ-hüquqi və metodik göstəriş, təlimat və vəsaitlər hazırlanmışdır.

O cümlədən:

Auditorlar Palatasının müraciətləri əsasında, Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) verdiyi müvafiq rəsmi icazələri əsasən və həmin qurumun tərcümə stradegiyasına uyğun olaraq Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri təmin edilmişdir:

- 700 saylı (yenidən işlənilmiş) "Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartı ingilis dilindən Azərbaycan dilinə tərcümə və redaktə edilmişdir. Həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 2025-ci il 28 fevral tarixli 374/8 nömrəli qərarı ilə bəyənilmişdir.

- 260 saylı (yenidən işlənilmiş) “İdarəetməyə məsul şəxslərlə əlaqələr” Beynəlxalq Audit Standartı ingilis dilindən  Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 2025-ci il 28 fevral tarixli 374/8 nömrəli qərarı ilə bəyənilmişdir.

- 600 saylı (düzəliş edilmiş) “Xüsusi-Mülahizələr - Qrup Maliyyə Hesabatlarının Auditi (o cümlədən bölmə auditorlarının işi)”  Beynəlxalq Audit Standartı ingilis dilidən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 23 aprel 2025-ci il tarixli 375/4 nömrəli qərarı ilə bəyənimişdir.

- “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının” Auditi üzrə Beynəlxalq Audit Standartı ingilis diindən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 13 iyun 2025-ci il tarixli 377/2 nömrəli qərarı ilə bəyənilmişdir.

“Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) 15 dekabr 2024-cü il tarixindən qüvvəyə minən yeni versiyası ingilis dilindən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin nəşr etdirilərək aidiyyəti qurumlara göndərilmiş və xidməti istifadə üçün auditor təşkilatlarına və sərbəst auditorlara paylanılmışdır.

Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat hazırlanmış və Palata Şurasının 24 yanvar 2025-ci il tarixli 373/1 nömrəli qərarı ilə bəyənilmişdir.

“Auditorlar Palatasında daxili auditin aparılması üzrə Təlimat” hazırlanmış və Palata Şurasının 2025-ci il 17 sentyabr tarixli 379/3 nömrəli qərarı ilə təsdiq edilmişdir.

“Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları” yenilənmiş və Auditorlar Palatası Şurasının 2025-ci il 02 may tarixli 376/4 nömrəli qərarı ilə təsdiq edilmişdir.

“Audit Komitəsinin nümunəvi Əsasnaməsi” hazırlanmış və Auditorlar Palatası Şurasının 2025-ci il 09 oktyabr tarixli 380/5 nömrəli qərarı ilə bəyənilmişdir.

“Audit və hesabatlılıq: cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə” kitabı Auditorlar Palatası Şurasının 2025-ci il 03 noyabr tarixli 381/1 nömrəli qərarı ilə bəyənilmiş və nəşr olunmuşdur.

### 3.2. Beynəlxalq peşəkar qurumlarla iş

Azərbaycan Respublikası qanunvericiliyinə və Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) üzvlük tələblərinə müvafiq olaraq Auditorlar Palatası audit sahəsində beynəlxalq peşəkar qurumların və inkişaf etmiş qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi əsasında ölkəmizdə auditin keyfiyyətinin yüksəldilməsini təmin etmək məqsədilə

müvafiq tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Auditorlar Palatasının üzv olduğu peşəkar qurumlar aşağıdakılardır:

• Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) – 2003-cü il may;
• Sertifikatlı Mühasiblərin və Auditorların Avrasiya Şurası (ESSBA) – 2007-ci il aprel;
• Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) – 2008-ci il noyabr;
• Avrasiya Mühasiblər və Auditorlar Qrupu – 2021-ci il dekabr.

Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) ilə birgə işlərin aparılması, habelə Beynəlxalq təşkilatlar və peşəkar qurumlar tərəfindən təqdim edilmiş materialların öyrənilməsi, müzakirəsi və tətbiqi 2025-ci il ərzində müntəzəm olaraq davam etdirilmiş, Palatanın əməkdaşları və üzvləri çoxsaylı vebinarlarda, yeni standartların layihələrinin müzakirələrində, sorğuların cavablandırılmasında iştirak etmişlər.

### 3.3. Audit sistemində icra intizamı və daxili nəzarət

**3.3.1**. Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) "Araşdırma və intizam tədbirləri" üzrə üzvlük tələblərinə müvafiq olaraq Audit sistemində icra intizamı və daxili nəzarət üzrə 2025-ci il ərzində aşağıdakı işlər görülmüşdür:

- Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları ilə Palata üzvlərinə verilmiş tapşırıqların icra vəziyyətinin müntəzəm olaraq monitorinqi və təhlili aparılmışdır.
- Auditor təşkilatlarının və sərbəst auditorların "Auditorların peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin icrası həyata keçirilmiş, auditorların peşə məsuliyyətinin icbari sığortası təmin olunmuşdur;
- Palatanın üzvləri tərəfindən Partnyorluq Sazişinə əməl edilməsinin monitorinqi aparılmışdır;
- Palata üzvlərinin "Auditorun şəxsi kabineti" sistemində fəaliyyətinin, Palatada fəaliyyət göstərən "Dəyirmi masa", təşkil olunan konfrans, seminar, ustad dərsləri və s. tədbirlərdə iştirakının mütəmadi olaraq monitorinqi aparılmışdır;
- Palatanın Şurası tərəfindən qəbul edilmiş qərarların, təsdiq olunmuş/bəyənilmiş metodik materialların, Palata sədrinin əmr və sərəncamalarının auditor təşkilatlarına və sərbəst auditorlara müntəzəm olaraq çatdırılması təmin edilmişdir.

**3.3.2.** Daxili audit üzrə:

2025-ci il ərzində Auditorlar Palatasında daxili nəzarət və təhlil funksiyaları çərçivəsində daxili audit tədbirləri həyata keçirilmişdir. Palatanın və onun Şurasının iş planlarının, Palata Şurasının qərarlarının, Palata rəhbərliyinin əmrlərinin, sərəncamlarının və digər tapşırıqların məsul şəxslər və icraçılar tərəfindən icrasına dair daxili audit mütəmadi

olaraq həyata keçirilmiş, müəyyən edilmiş müddətlərdə icra vəziyyəti təhlil edilmiş və nəticələr əsasında müvafiq hesabatlar hazırlanıb təqdim olunmuşdur.

Bununla yanaşı, Palataya daxil olmuş və Palata rəhbərliyi tərəfindən müvafiq struktur bölmələrinə göndərilmiş məktubların icrasına nəzarət edilmiş, həmin məktubların vaxtında və tam şəkildə cavablandırılması təmin olunmuş, icra vəziyyəti barədə həftəlik hesabatlar hazırlanmışdır.

Eyni zamanda, Palatanın struktur bölmələri üzrə onların əsasnamə funksiyalarının və işçilərin vəzifə təlimatlarının icrasının təsdiq olunmuş plan-qrafik əsasında monitorinqi aparılmış, bu istiqamətdə müşahidə olunan məqamlar nəzərə alınaraq müvafiq təklif və tövsiyələr tərtib olunmuşdur.

Daxili auditin nəticələrinə əsasən, müəyyən edilmiş istiqamətlər üzrə icra intizamının gücləndirilməsi məqsədilə zəruri hallarda əlavə tədbirlər də təklif olunmuşdur. Bütün bu fəaliyyətlər dövri hesabatlarla sənədləşdirilmiş və aidiyyəti üzrə təqdim edilmişdir.

### 3.4. Auditor xidməti sahəsində haqsız rəqabətə qarşı mübarizə

Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylər üzrə 2025-ci il ərzində sistemli və ardıcıl nəzarət tədbirləri həyata keçirilmişdir. Bu istiqamətdə auditorların auditor xidməti göstərilməsinə dair bağladıqları müqavilələrin gündəlik monitorinqi, operativ təhlili və risk əsaslı qiymətləndirilməsi aparılmışdır.

Hesabat dövründə “Auditorun şəxsi kabineti” informasiya sisteminə daxil edilmiş ümumilikdə 6562 auditor xidməti müqaviləsi ətraflı təhlil edilmiş, həmin müqavilələrin Auditorlar Palatası Şurasının 03 oktyabr 2022-ci il tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nə uyğunluğu yoxlanılmışdır.

Minimum xidmət dəyərlərinə əməl edilməməsi, eləcə də dempinq xarakterli qiymət siyasətinin tətbiqi ilə bağlı aşkar olunmuş hallar üzrə intizam xarakterli tədbirlər görülmüşdür. Bu tədbirlər bazarda ədalətli rəqabət mühitinin qorunmasına, peşə etikası normalarına riayət olunmasına və audit xidmətlərinin keyfiyyətinin aşağı düşməsinin qarşısının alınmasına yönəlmişdir.

Aparılmış monitorinqlər nəticəsində Auditorlar Palatası Şurasının 19 oktyabr 2022-ci il tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnamənin müvafiq maddələrinə əsasən 23 auditor təşkilatına və 7 sərbəst auditora xəbərdarlıq edilmiş, 1 sərbəst auditora töhmət elan olunmuş, 1 auditor təşkilatı isə altı ay müddətinə peşə fəaliyyətindən kənarlaşdırılmışdır. Tətbiq edilmiş intizam tədbirləri preventiv və tənzimləyici xarakter

daşımaqla audit bazarında minimum xidmət dəyərlərinə riayət olunmasının təmin edilməsinə və dempinq hallarının sistemli şəkildə azaldılmasına xidmət etmişdir.

Eyni zamanda, 55 auditor təşkilatı və 11 sərbəst auditor tərəfindən bağlanılmış 78 müqavilə üzrə xidmət dəyərlərinin müəyyən edilmiş minimum hədlərdən yüksək olması müsbət praktika kimi qiymətləndirilmişdir. Bu yanaşma audit xidmətlərinin real dəyərinin qorunması, peşəkar məsuliyyət və etik standartlara sadiqlik baxımından təqdirəlayiq hal kimi dəyərləndirilmiş, sağlam rəqabət mühitinin formalaşmasına töhfə verən nümunəvi təcrübə kimi qeyd olunmuşdur.

2025-ci ildə “Auditdə haqsız rəqabət – problem və həll yolları” mövzusunda maarifləndirici videoçarx hazırlanmışdır. Videoçarxda audit sahəsində haqsız rəqabətin formaları, dempinqin iqtisadi və peşəkar nəticələri, eləcə də bu halların audit rəylərinin etibarlılığına və ictimai etimada təsiri ətraflı şəkildə izah edilmişdir. Bununla yanaşı, normativ tələblərə əməl olunmasının əhəmiyyəti, nəzarət mexanizmləri və preventiv tədbirlər barədə məlumat verilmiş, praktik nümunələr əsasında mümkün həll yolları təqdim edilmişdir. Hazırlanmış videoçarx geniş auditoriyaya çatdırılması məqsədilə “YouTube” platformasında və Palatanın rəsmi sosial şəbəkə hesablarında yerləşdirilmiş, audit sahəsində şəffaflıq və hesabatlılıq prinsiplərinin təşviqinə xidmət etmişdir.

Hesabat dövründə müqavilə məbləğlərinin gündəlik operativ təhlili davam etdirilmiş, informasiya sisteminə daxil edilən məlumatların düzgünlüyü və tamlığı nəzarətdə saxlanılmışdır. Potensial haqsız rəqabət risklərinin vaxtında müəyyən edilməsi, bazar iştirakçılarının davranış meyillərinin izlənilməsi və profilaktik tədbirlərin gücləndirilməsi istiqamətində davamlı iş aparılmışdır.

2025-ci il üzrə aparılmış monitorinq və təhlillər göstərir ki, audit xidmətləri bazarında dempinq meylləri tam aradan qalxmamışdır. Bu səbəbdən nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və intizam praktikasının ardıcıl tətbiqi zəruri olaraq qalır. Qarşıdakı dövrdə də sağlam rəqabət mühitinin qorunması, audit xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və peşəkar etika prinsiplərinə riayət olunmasının təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

### 3.5. Rəqəmsallaşma sahəsində görülmüş işlər

Auditorlar Palatasının rəqəmsal infrastrukturunun sabit və təhlükəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə:

1. Auditorlar Palatasının rəsmi internet səhifəsi, Auditorun şəxsi kabineti sistemi, eləcə də Auditor sertifikatlarının və icazələrin idarəedilməsi sistemi üzrə SSL sertifikatları yenilənmiş, təhlükəsizlik konfiqurasiyaları gücləndirilmiş;

2. Sistemlərdə yaranmış texniki nasazlıqlar operativ qaydada aradan qaldırılmış;

3. Serverlər mütəmadi olaraq zərərli proqram təminatına qarşı yoxlanılmış və viruslardan təmizlənmiş;

4. Məlumatların ehtiyat nüsxələrinin (backup) yaradılması və saxlanılması prosedurları təkmilləşdirilmiş;

5. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən yaradılmış müvafiq sistemlər vasitəsilə informasiya təhlükəsizliyi üzrə hesabatlılıq təmin edilmiş, sistemlərin fəaliyyəti barədə müntəzəm məlumatlar təqdim olunmuşdur.

**Auditorun şəxsi kabineti sistemində:**

1. Hesabatların müntəzəm təhlili mexanizmləri yenidən işlənmiş, onların avtomatik formalaşdırılması prosedurları dəqiqləşdirilmiş;

2. "Müqavilələrin/Rəylərin Qeydiyyatı" bölməsində redaktə funksionallığı təkmilləşdirilmiş, rəyin verilməsi və təsdiqi proseduru sadələşdirilmiş;

3. "Xəbərlər", "Kurslar və seminarlar", "Vebinarlar", "Təlimatlar", "Metodik dəstək" və "ƏL/TMM dair məlumatlar" bölmələrinin dizaynı yenilənmiş, interfeys daha funksional və istifadəçi yönümlü formaya salınmış;

4. Kibertəhlükəsizliyin təmin olunması istiqamətində:

- Müntəzəm olaraq server viruslardan təmizlənmiş;
- SSL sertifikatı yenidən quraşdırılmış;
- Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən yaradılmış müvafiq sistemlər vasitəsilə informasiya təhlükəsizliyi üzrə hesabatlılıq təmin edilmiş, sistemlərin fəaliyyəti barədə müntəzəm məlumatlar təqdim olunmuşdur.

5. "Auditorun Şəxsi Kabineti" sisteminin fasiləsiz fəaliyyətini təmin etmək və funksional imkanlarını genişləndirmək məqsədilə, yeni, təkmilləşdirilmiş və dizayn baxımından yenilənmiş versiyaya keçid işləri həyata keçirilmişdir.

**Auditor sertifikatlarının və icazələrin idarəedilməsi sistemində:**

1. Sistem üzrə mövcud funksional problemlər aradan qaldırılmış;

2. Kibertəhlükəsizlik tədbirləri gücləndirilmiş, server təhlükəsizliyi təmin edilmiş və SSL sertifikatı yenidən quraşdırılmış;

3. Sistem daxilində tətbiq edilən yaş məhdudiyyəti aradan qaldırılmış, bununla da normativ tələblərə uyğunluq təmin edilmiş;

4. Dövlət xidmətlərinin elektron inteqrasiyası istiqamətində mühüm addım atılmışdır.

Belə ki, Dövlət Xidmətlərinin Elektron Reyestrində (DXR) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən göstərilən aşağıdakı xidmətlər qeydiyyata alınmışdır:

- Auditor adının alınması;
- Auditor fəaliyyətinin göstərilməsinə dair icazənin verilməsi;

- Auditor fəaliyyətinə icazənin dayandırılması;
- Auditor fəaliyyətinə icazənin bərpası;
- Auditor fəaliyyətinə icazənin ləğvi.

Hazırda xidmətlər üzrə məlumatların sistemə tam inteqrasiyası və elektron formada təqdim edilməsi istiqamətində işlər davam etdirilir.

Auditorlar Palatası tərəfindən məlumatların rəqəmsal idarə olunması, elektron xidmətlərin genişləndirilməsi, proseslərin avtomatlaşdırılması və kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində tədbirlər 2026-cı ildə də davam etdirilməsi planlaşdırılır.

### 3.6. Auditorun sertifikatlaşdırma və icazələrin verilməsi sistemi

Azərbaycan Respublikası Prezidentinin 09 avqust 2021-ci il tarixli 1415 nömrəli ""e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Fərmanının 4-cü "Dövlət orqanları (qurumları) bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 1.2-ci bəndinə uyğun olaraq məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini və həmin Əsasnamənin 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulan xidmətlərin bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq göstərilməsini təmin etmək məqsədilə aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası üçün zəruri tədbirlər görsünlər" yarımbəndinə müvafiq olaraq Auditorlar Palatası tərəfindən Azərbaycan Respublikası Prezidentinin "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 3-cü yarımbəndindən və Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli "Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 17-ci "auditor adı almaq üçün ixtisas imtahanının nəticələrini təsdiq edən sənədin verilməsi" bəndindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə "İcazələrin və Sertifikatların elektron sistemi" yaradılmışdır.

Hazırda sistem tam işlək vəziyyətdədir və Auditorlar Palatasının rəsmi internet səhifəsində "Xidmətlər üçün onlayn müraciət" bölməsində https://audit.gov.az/Az/page/494 səhifəsində istifadəçilərin xidmətindədir. Eyni zamanda, sistem https://digital.login.gov.az/auth portalına inteqrasiya edilmiş və ASAN Login vasitəsilə rahat giriş imkanı təmin olunmuşdur.

Auditorlar Palatası tərəfindən innovativ inkişaf sahəsində işlər müntəzəm davam etdirilir.

## IV. AUDİTOR TƏŞKİLATLARININ VƏ SƏRBƏST AUDİTORLARIN 2025-Cİ İLİN YEKUNU ÜZRƏ HESABATLARININ TOPLANMASI, TƏHLİLİ VƏ İCMAL-TÖVSİYƏLƏRİN HAZIRLANMASI

2025-ci il ərzində 201 auditor təşkilatının (o cümlədən 4 böyük dördlük və 12 xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatı) və 66 sərbəst auditorun auditor fəaliyyətini həyata keçirmək hüququ olmuşdur ***(Cədvəl 1).***

***Cədvəl 1***

| **Auditorlar Palatasının üzvləri** | **Fəaliyyət göstərənlər (2025 dekabr)** | **Fəaliyyətini dayandıranlar** | **Fəaliyyətini bərpa edənlər** | **Yeni icazə alanlar** | **İcazəsinin fəaliyyət müddəti bitənlər** |
|---|---|---|---|---|---|
| Böyük Dördlük | 4 | 0 | 0 | 0 | 0 |
| Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları | 12 | 0 | 0 | 0 | 0 |
| Yerli auditor təşkilatları | 185 | 11 | 4 | 39 | 2 |
| Sərbəst auditorlar | 66 | 14 | 1 | 13 | 0 |
| **Cəmi** | 267 | 25 | 5 | 52 | 2 |

2025-ci il ərzində **11** auditor təşkilatının və 1**4** sərbəst auditorun icazələri müvəqqəti olaraq dayandırılmışdır ***(əlavə 1).***

2025-ci il ərzində **4** auditor təşkilatının və 1 sərbəst auditorun icazələri bərpa edilmişdir ***(əlavə 2).***

2025-ci il ərzində **39** auditor təşkilatına və **13** sərbəst auditora yeni icazələr verilmişdir ***(əlavə 3).***

2025-ci il ərzində **2** auditor təşkilatının icazələrinin müddəti bitmişdir ***(əlavə 4).***

2025-ci il ərzində **21** auditor təşkilatının və **2** sərbəst auditorun icazələrinin fəaliyyət müddəti uzadılmışdır ***(Əlavə 5).***

2025-ci il ərzində **5** auditor təşkilatının adları dəyişdirilərək yeni icazələr verilmişdir ***(Əlavə 6).***

## I

## 2025-ci il üzrə auditor xidməti göstərilməsinə dair bağlanmış müqavilələr

**2025**-ci il ərzində **201** auditor təşkilatı və **66** sərbəst auditor tərəfindən Auditorlar Palatasına öz fəaliyyətlərinə dair hesabatlar təqdim edilmişdir. Təqdim edilmiş hesabatlara əsasən müəyyən edilmişdir ki, hesabat dövründə təsərrüfat subyektləri ilə **152,0** mln. manat məbləğində **7815** müqavilə bağlanmışdır. Bağlanmış müqavilələrdə böyük dördlük üzrə xüsusi çəkisi sayına görə **13,5**% və məbləğinə görə **59,6**%, xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə sayına görə **11,0**% və məbləğinə görə **14,7**%, yerli auditor təşkilatları üzrə sayına görə **60,0**% və məbləğinə görə **22,0**%, sərbəst auditorlar üzrə sayına görə **15,5**% və məbləğinə görə **3,7**% təşkil etmişdir ***(Cədvəl 2).***

***2024-2025-ci ilər üzrə xüsusi çəkisinə görə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələr müqayisəsi***

***Cədvəl 2***

| **Auditorlar Palatasının üzvləri** | **2024-cü il** | | **2025-ci il** | |
|---|---|---|---|---|
| | **Sayı %-lə** | **Məbləği %-lə** | **Sayı %-lə** | **Məbləğ %-lə** |
| Böyük Dördlük | **1085 15,1%** | **98,4 mln 64,1%** | **1058 -13,5**% | **90,6 mln -59,6**% |
| X.H.Ş ticarət nişanından istifadə edən auditor təşkilatları | **736 10,2%** | **18,8 mln 12,3%** | **862** 11,0% | **22,3 mln** 14,7% |
| Yerli auditor təşkilatları | **4047 56,3%** | **30,4 mln 19,8%** | **4679** 60,0% | **33,2 mln** 22,0% |
| Sərbəst auditorlar | **1325 18,4%** | **5,8 mln 3,8%** | **1216 -15,5**% | **5,7 mln -3,7**% |

| | | | | |
|---|---|---|---|---|
| **Cəmi** | **7193** | **153,4 mln** | **7815** | **152,0 mln** |

**2024-2025-ci ilər üzrə auditor xidməti göstərilməsinə dair bağlanmış müqavilələrin sayları və məbləğlərinin müqayisəsi**

**2024**-cü ilin müvafiq dövrü ilə müqayisədə **2025**-ci ildə bağlanmış müqavilələrin sayı **7193**-dən **7815**--ə qədər, yəni **622** ədəd və ya **8,6**% artmış, məbləği isə **153,4** mln. manatdan **152,0** mln. manata qədər, yəni **1,4** mln. manat və ya **0,9**% azalmışdır (***Diaqram 1-2***).

***Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin sayı***




***Diaqram 1***

***Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin məbləğləri (mln.manatla)***




***Diaqram 2***

O cümlədən:

- Böyük dördlük üzrə müqavilələrin sayı **1085**-dən **1058**-ə qədər, yəni **27** ədəd və ya **2,5%,** məbləği **98,4** mln. manatdan **90,6** mln.manata qədər, yəni **7,8** mln. manat və ya **8,0**% **azalmışdır**;

- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə müqavilələrin sayı **736**-dan **862**-ə qədər, yəni **126** ədəd və ya **17,1%,** məbləği **18,8** mln. manatdan **22,3** mln. manata qədər, yəni **3,5** mln.manat və ya **18,6% artmışdır**;

- Yerli auditor təşkilatları üzrə müqavilələrin sayı **4047**-dən **4679**-a qədər, yəni **632** ədəd və ya **15,6%,** məbləği isə **30,4** mln. manatdan **33,2** mln. manata qədər, yəni **2,8** mln. manat və ya **9,2% artmışdır**;

- Sərbəst auditorlar üzrə müqavilələrin sayı **1325**-dən **1216**-a qədər, yəni **109** ədəd və ya **8,2%**, məbləği isə **5,8** mln. manatdan **5,7** mln. manata qədər, yəni **0,1** mln. manat və ya **1,7% azalmışdır (*Diaqram 3-4*).**

Qeyd etmək lazımdır ki, Böyük dördlük üzrə bağlanmış müqavilələrin həm sayında, **2,5**% hən də məbləğində **8,0**% azalma olmuşdur.

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayının müqayisəsi***




***Diaqram 3***

Diaqram 3-də auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayının **2024-2025**-ci illər üzrə müqayisəsi göstərilmişdir. Diaqramdan da göründüyü kimi **2025**-ci ildə ötən illə müqayisədə Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları və Yerli auditor təşkilatları üzrə bağlanmış müqavilələrin sayında və məbləğində **artım**, Böyük dördlük və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayında və məbləğində isə **azalma** müşahidə edilmişdir.

**2024-2025**-ci illər üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin məbləğinin müqayisəsi aşağıdakı diaqramda öz əksini tapmışdır:

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin məbləği (mln.manatla)***




***Diaqram 4***

Diaqram 4-dən də göründüyü kimi **2024**-cü il üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin ümumi məbləğində artım müşahidə edilmişdir.

**2025-ci il ərzində tender və katirovkalarda iştirak edən auditor təşkilatları və sərbəst auditorlar tərəfindən qeyd olunan müqavilələr.**

***Cədvəl 3***

| ***Tender və katirovkada iştirak edən təsərrüfat subyektlərinin sayı*** | | ***İcra edilən müqavilələr*** | ***İcrası davam edən müqavilələr*** | ***Yerinə yetirilən xidmət növləri*** |
|---|---|---|---|---|
| ***Say*** | | ***Say*** | ***Say*** | 114-MHA<br>3-DX<br>2-NKA<br>1-İƏX |
| ***138*** | | **120** | **18** | |
| ***Cəmi*** | **138** | **120** | **18** | **120** |

Cədvəl 3-də tender və katirovkalarda qalib gələn auditor təşkilatları və sərbəst auditorlar tərəfindən ***138*** müqavilə bağlanmşdır. Bunlardan **120**-i yerinə yetirilmiş **18**-i isə yerinə yetirilməmişdir. Xidmət növləri üzrə 114-i MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi), 3-ü DX (Digər auditor (əlaqəli) xidmətləri), 2-NKA (Nizamnamə kapitalının formalaşdırılmasının auditi), 1-İƏB (İqtisadi əsaslandırmaların, biznes planlarının və digər layihələrin işlənib hazırlanması).

**2025-ci il üzrə auditor xidməti göstərilməsinə dair yerinə yetirilmiş müqavilələr**

**2025**-ci il ərzində bağlanmış **7815** müqavilədən **6783-ü**, yəni **86,8%-i,** məbləği üzrə isə **152,0** mln.manatdan **113,7** mln. manatı, yəni **74,8%-i** yerinə yetirilmişdir.

**2024-2025-ci illər üzrə auditor xidməti göstərilməsinə dair yerinə yetirilmiş müqavilələr sayı və məbləğinə görə müqayisəsi**

Qeyd etmək lazımdır ki, **2024**-cü il ilə müqayisədə **2025**-ci ildə yerinə yetirilmiş müqavilələrin sayı **6353**--dən **6783**-ə qədər, yəni **430** ədəd və ya **6,8% artmış,** məbləği **117,9** mln. manatdan **113,7** mln. manata qədər, yəni **4,2** mln. və ya **3,6%,** orta məbləğ isə **18,5** min manatdan **16,8** min manata qədər, yəni **1,7** min manat və ya **9,2% azalmışdır** (***Diaqram 5-6***).

***Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin sayı***




***Diaqram 5***

***Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin məbləği (mln.manatla)***




***Diaqram 6***

O cümlədən:

- Böyük dördlük üzrə yerinə yetirilmiş müqavilələrin sayı **842-**dən **826**-a qədər, yəni **16** ədəd və ya **1,9%,** məbləği **73,2** mln. manatdan **65,4** mln. manata qədər, yəni **7,8** mln. manat və ya **10,6%**, orta məbləğ isə **87,0** min manatdan **79,2** min manata qədər, yəni **7,8** min manat və ya **9,0% azalmışdır;**

- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə yerinə yetirilmiş müqavilələrin sayı **519**-dan **559**-a qədər, yəni **40** ədəd və ya **7,7%,** məbləği **12,1** mln. manatdan **12,7** mln. manata qədər, yəni **0,6** mln. manat və ya **5,0% artmış**, orta məbləğ isə **23,3** min manatdan **22,7** min manata qədər, yəni **0,6** min manat və ya **2,6% azalmışdır;**

- Yerli auditor təşkilatları üzrə yerinə yetirilmiş müqavilələrin sayı **3766**-dan **4267**-ə qədər, yəni **501** ədəd və ya 1**3,3**%, məbləği **27,1** mln. manatdan **30,3** mln. manata qədər, yəni **3,2** mln. manat və ya **11,8% artmış,** orta məbləğ isə **7,2** min manatdan **7,1** min manata qədər, yəni **0,1** min manat və ya **1,4% azalmışdır;**

- Sərbəst auditorlar üzrə yerinə yetirilmiş müqavilələrin sayı **1226**-dan **1131**-ə qədər, yəni **95** ədəd və ya **7,7%,** məbləği **5,5** mln. manatdan **5,3** mln. manata qədər, yəni **0,2** mln. manat və ya **3,6**% **azalmış**, orta məbləğ isə **4,5** min manatdan **4,7** min manata qədər yəni **0,2** min manat və ya **4,4**% **artmışdır** ***(Diaqram 7-8, Cədvəl 4)***

Burada bağlanmış müqavilələrdə olduğu kimi Böyük dördlük üzrə yerinə yetirilmiş müqavilələrin həm sayında, **1,9**% həm də məbləğində **10,6**% və ya **7,8** mln. manat orta məbləğ isə **9,0%** azalması qeydə alınmışdır.

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin sayı***




***Diaqram 7***

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin məbləği (mln.manatla)***




***Diaqram 8***

*Cədvəl 4*

| Auditorlar Palatasının üzvləri | 2024 | | | 2025 | | | 2024-2025-ci illər üzrə artım-azalma müqayisəsi (%-lə) | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **sayı (ədədlə)** | **məbləği (mln. manatla)** | **orta məbləği (min manatla)** | **sayı (ədədlə)** | **məbləği (mln. manatla)** | **orta məbləği (min manatla)** | **sayı üzrə** | **məbləği üzrə** | **orta məbləği üzrə** |
| Böyük Dördlük | 842 | 73,2 | 87,0 | 826 | 65,4 | 79,2 | -1,90% | -10,6% | -9,0% |
| Xarici h/ş t/n istifadə edən auditor təşkilatları | 519 | 12,1 | 23,3 | 559 | 12,7 | 22,7 | 7,70% | 5,0% | -2,6% |
| Yerli auditor təşkilatları | 3766 | 27,1 | 7,2 | 4267 | 30,3 | 7,1 | 13,3% | 11,8% | -1,4% |
| Sərbəst auditorlar | 1226 | 5,5 | 4,5 | 1131 | 5,3 | 4,7 | -7,7% | -3,6% | 4,4% |
| **CƏMİ** | 6353 | 117,9 | 18,5 | 6783 | 113,7 | 16,8 | 6,8% | -3,6% | -9,2% |

**2025-ci il ərzində auditor xidmətinin növləri üzrə yerinə yetirilmiş müqavilələr**

**2025-ci** il ərzində **9** auditor xidməti növündən istifadə olunmuşdur. Yerinə yetirilmiş muqavilələrdən **5170 ədəd** MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi), məblәgi **72.987.918,00 manat**; **168 ədəd** NKA (Nizamnamə kapitalının formalaşdırılmasının auditi) məbləği **551.909,00 manat**; **40 ədəd** VHA (Maliyyə-təsərrüfat əməliyyatlarının vergi qanunvericiliyinə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin vergi hesabatlarının auditi), məbləği **569.791,00 manat**; **81 ədəd** ƏQA (Əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi), məbləği **206.849,00 manat**; **122 ədəd** MUX (Müəssisə və təşkilatlarda mühasibat xidmətlərinin göstərilməsi), məbləği **2.919.302,00 manat**; **436 ədəd** MX (Mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətinin göstərilməsi), məbləği **10.127.605,00 manat; 69 ədəd** İƏB (İqtisadi əsas. Layihə), məbləği **10.175.692,00 manat; 35 ədəd** SDOSA (Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan audit), məbləği **75.400,00 manat, 662 ədəd** DX (Digər auditor (əlaqəli) xidmətləri), məbləği **16.105.029,00 manat** təşkil etmişdir.

***2024-2025-ci illər ərzində auditor xidmətinin növləri üzrə yerinə yetirilmiş müqavilələrin saylarının müqayisəsi (ədədlə)***

***Cədvəl 5***

| Növü | 2024-cü il | 2025-ci il | % |
|---|---|---|---|
| **MHA** | 4600 | 5170 | 570 ədəd- 12,4 ↑ |
| **NKA** | 220 | 168 | 52 ədəd- 23,6 ↓ |
| **VHA** | 34 | 40 | 6 ədəd – 17,6 ↑ |
| **ƏQA** | 128 | 81 | 47 ədəd – 36,7 ↓ |
| **MUX** | 156 | 122 | 34 ədəd – 21,8 ↓ |
| **MX** | 550 | 436 | 114 ədəd – 20,7 ↓ |
| **İƏB** | 104 | 69 | 35 ədəd – 33,7 ↓ |
| **SDOSA** | 19 | 35 | 16 ədəd – 84,2 ↑ |
| **DX** | 540 | 662 | 122 ədəd – 22,6 ↑ |

O cümlədən:

1. MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi) üzrə müqavilələrin sayı **4600**-dən **5170**-ə qədər, yəni **570** ədəd və ya **12,4%** artmış;

2. NKA (Nizamnamə kapitalının formalaşdırılmasının auditi) üzrə müqavilələrin sayı **220**-dən **168**-ə qədər, yəni **52** ədəd və ya **23,6%** azalmış;

3. VHA (Maliyyə-təsərrüfat əməliyyatlarının vergi qanunvericiliyinə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin vergi hesabatlarının auditi) üzrə müqavilələrin sayı **34**-dən **40**-a qədər, yəni **6** ədəd və ya **17,6**% artmış;

4. ƏQA (Əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi) üzrə müqavilələrin sayı **128**-dən **81**-ə qədər, yəni 47 ədəd və ya **36,7%** azalmış;

5. MUX (Müəssisə və təşkilatlarda mühasibat xidmətlərinin göstərilməsi) üzrə müqavilələrin sayı **156**-dan **122**-ə qədər, yəni **34** ədəd və ya **21,8%** azalmış;

6. MX (Mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətinin göstərilməsi) üzrə müqavilələrin sayı **550**-dən **436**-ya qədər, yəni **114** ədəd və ya **20,7%** azalmış;

7. SDOSA (Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan audit) üzrə müqavilələrin sayı **19**-dan **35**-ə qədər, yəni **16** ədəd və ya **84,2%** artmış;

8. İƏB (İqtisadi əsaslandırmaların, biznes planlarının və digər layihələrin işlənib hazırlanması) üzrə müqavilələrin sayı **104**-dən **69**-ə qədər, yəni **35** ədəd və ya **33,7%** azalmış;

9. DX (Digər auditor (əlaqəli) xidmətləri) üzrə müqavilələrin sayı **540**-dan **662**-ə qədər, yəni **122** ədəd və ya **22,6%** artmışdır ***(Diaqram 9).***




***Diaqram 9***

***2024-2025-ci illər ərzində auditor xidmətinin növləri üzrə yerinə yetirilmiş müqavilələrin məbləğlərinin müqayisəsi***

1. MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi) üzrə müqavilələrin məbləği **60,3** mln manatdan **73,0** mln manata qədər, yəni **12,7** mln manat və ya **21%** artmış;

2. NKA (Nizamnamə kapitalının formalaşdırılmasının auditi) üzrə müqavilələrin məbləği **624,5** min manatdan **552,0** min manata qədər, yəni **72,5** min manat və ya **11,6%** azalmış;

3. VHA (Maliyyə-təsərrüfat əməliyyatlarının vergi qanunvericiliyinə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin vergi hesabatlarının auditi) üzrə

müqavilələrin məbləği **507,6** min manatdan **570,0** min manata qədər, yəni **62,4** min manat və ya **12,3%** artmış;

4. ƏQA (Əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi) üzrə müqavilələrin məbləği **425,0** min manatdan **207,0** min manata qədər, yəni **218,0** min manat və ya **51,3%** azalmış;

5. MUX (Müəssisə və təşkilatlarda mühasibat xidmətlərinin göstərilməsi) üzrə müqavilələrin məbləği **3,0** min manatdan **3,0** mln. manata qədər, yəni dəyişməmiş;

6. MX (Mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətinin göstərilməsi) üzrə müqavilələrin məbləği **17,2** mln. manatdan **10,1** mln. manata qədər, yəni **7,1** mln. manat və ya **41,3%** azalmış;

7. SDOSA (Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan audit) üzrə müqavilələrin məbləği **45,5** min manatdan **75,4** min manata qədər, yəni **29,9** min manat və ya **65,7%** artmış,

8. İƏB (İqtisadi əsaslandırmaların, biznes planlarının və digər layihələrin işlənib hazırlanması) üzrə müqavilələrin məbləği **23,5** mln. manatdan **10,2** mln. manata qədər, yəni **13,3** mln manat və ya **56,6**% azalmış;

9. DX (Digər auditor (əlaqəli) xidmətləri) üzrə müqavilələrin məbləği **12,3** mln. manatdan **16,1** mln. manata qədər, yəni **3,8** mln. manat və ya **30,9%** artmışdır. **(Cədvəl 6.)**

***Cədvəl 6***

| *Növü* | *2024-cü il* | *2025-ci il* | *%* |
|---|---|---|---|
| ***MHA*** | 60,3 mln. manat | 73,0 mln. manat | 12.7 mln və ya 21% ⬆ |
| ***NKA*** | 624,5 min manat | 552,0 min manat | 72,5 min və ya 11,6% ⬇ |
| ***VHA*** | 507,6 min manat | 570,0 min manat | 62,4 min və ya 12,3% ⬆ |
| ***ƏQA*** | 425 min manat | 207,0 min manat | 218 min və ya 51,3% ⬇ |
| ***MUX*** | 3,0 mln. manat | 3,0 mln. manat | 0 mln və ya 0% |
| ***MX*** | 17,2 mln. manat | 10,1 mln. manat | 7,1 mln və ya 41,3% ⬇ |
| ***İƏB*** | 23,5 mln. manat | 10,2 mln. manat | 13,3 min və ya 56,6% ⬇ |
| ***SDOSA*** | 45,5 min manat | 75,4 min manat | 29,9 min və ya 65,7% ⬆ |
| ***DX*** | 12,3 mln. manat | 16,1 mln. manat | 3,8 min və ya 30,9% ⬆ |

## 2025-ci il üzrə auditor xidməti göstərilməsinə dair ləğv olunmuş müqavilələr

**2025**-ci il ərzində bağlanmış 7815 müqavilədən **31-i**, yəni **0,4**%-i, məbləği üzrə isə **152,0** mln.manatdan **297,1** min manatı, yəni **0,2**%-i ləğv olunmuşdur.

Qeyd etmək lazımdır ki, **2024**-cü il ilə müqayisədə **2025**-ci ildə ləğv edilmiş müqavilələrin sayı **26**-dan **31**-ə qədər, yəni **5** ədəd və ya **19,2% artmış,** məbləği **944,0** min manatdan **297,0** min manata qədər, yəni **647,0** min manat və ya **68,5% azalmışdır** ***(Diaqram 10-11, Cədvəl 7).***

***Auditor xidmətinin göstərilməsinə dair ləğv olunmuş müqavilələrin sayı (ədədlə)***




***Diaqram 10***

***Auditor xidmətinin göstərilməsinə dair ləğv olunmuş müqavilələrin məbləği (min manatla)***




***Diaqram 11***

O cümlədən:

- böyük dördlük üzrə **117,0** min manat dəyərində **2-i**;

- xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə **28,0** min manat dəyərində **3-**ü;

- yerli auditor təşkilatları üzrə **150,0** min manat dəyərində **25-i;**

- sərbəst auditorlar üzrə **2** min manat dəyərində **1-i**.

Qeyd etmək lazımdır ki, 13 ədəd ləğv olunmuş müqavilələr **2025**-ci ilin I yarımilliyində qeyd olunmuşdur.

***Cədvəl 7***

| **Auditor təşkilatları** | | |
|---|---|---|
| ***Auditor təşkilatının adı, direktorunun adı, ata adı, soyadı*** | **Xidmət növləri** | **Müqavilə sayı** |
| ***"A Audit and Consulting" MMC***<br><br>***Direktor: Əliyev Rüfət Yaqub oğlu*** | 2 ədəd - DX<br>1 ədəd - MHA | 3 ədəd<br>**1** |
| ***"AKK-NET Audit" MMC***<br><br>***Direktor: Eyvazov Aqil Aftandil oğlu*** | 1 ədəd – MHA | 1 ədəd<br>**1** |
| ***"AUDİT REPORTS and Consulting" MMC***<br><br>***Direktor: Qaflanov Ceyhun Bayram oğlu*** | 2 ədəd - MHA | 2 ədəd<br>**2** |
| ***"Azinvest-Property" MMC***<br><br>***Direktor: Hüseynli Telman*** | 1 ədəd MHA | 1 ədəd |
| ***"ATAC" MMC***<br><br>***Direktor: Osmanov İlfan İlham oğlu*** | 2 ədəd MHA | 2 ədəd<br>**2** |
| ***"Ekol Audit" MMC***<br><br>***Direktor: Qulizadə Elçin İlham oğlu*** | 1 ədəd - MHA | 1 ədəd<br>**1** |
| ***"GR Audit" MMC***<br><br>***Direktor: Rəhimov Qalib Zakir oğlu*** | 1 ədəd - MHA | 1 ədəd |
| ***"General Audit CO" MMC***<br><br>***Direktor: Mirzəyevə Qızqayıt Baloğlan qızı*** | 4 ədəd - MHA | 4 ədəd |
| ***"GLOBAL AUDİT" MMC***<br><br>***Direktor: Pirimov Azər Arif oğlu*** | 1 ədəd - MHA | 1 ədəd |

| | | |
|---|---|---|
| ***“İnvest Finance” MMC***<br><br>***Direktor: Bayramov Anar Qəşəm oğlu*** | 2 ədəd – MHA<br>1 ədəd-MX | 3 ədəd<br>**2** |
| ***“Keynes Finance Group” MMC***<br><br>***Direktor: Abdullayev Ülvi Mətləb oğlu*** | 1 ədəd - MHA | 1 ədəd<br>**1** |
| ***"L.B. Audit Xidməti" MMC***<br><br>***Direktor: Bayramova Lamiyə Qəşəm qızı*** | 3 ədəd - MHA | 3 ədəd<br>**2** |
| ***"Premium Audit" MMC***<br><br>***Direktor: Kərimov Natiq İmran oğlu*** | 1 ədəd DX<br>1 ədəd NKA | 2 ədəd<br>**2** |
| ***“Parker Russell Azerbaijan” MMC***<br><br>***Direktor: Abdinova Elnurə Tofiq qızı*** | 2 ədəd - MHA | 2 ədəd<br>**1** |
| ***“REANDA Azərbaycan” MMC***<br><br>***Direktor: Manafov Rahim Əlikram oğlu*** | 1 ədəd - MUX | 1 ədəd<br>**1** |
| ***“Praysvoterhaus Kupers Audit Az." MMC***<br><br>***Direktor: Mustafayev Fəxri Üzeyir oğlu*** | 2 ədəd - MHA | 2 ədəd<br>**1** |
| **Sərbəst auditorlar** | | |
| **Aydınlı Məhəmməd** | MHA | 1 ədəd<br>**1** |

**2025-ci il üzrə auditor xidməti göstərilməsinə dair yerinə yetirilməmiş müqavilələr**

**2025**-ci il ərzində mövcud **7815** müqavilədən **1001-i,** yəni **13,0%-i,** məbləği üzrə isə **152,0** mln. manatdan **38,0** mln. manatı, yəni **25,0%-i** yerinə yetirilməmişdir.

Qeyd etmək lazımdır ki, **2024**-cü il ilə müqayisədə **2025**-ci ildə yerinə yetirilməmiş müqavilələrin sayı **814**-dən **1001**-ə qədər, yəni **187** ədəd və ya **23,0%,** məbləği **34,6** mln. manatdan **38,0** mln. manata qədər, yəni **3,4** mln. manat və ya **10,0% artmışdır**.***(Diaqram 12-13).***

Qeyd etmək lazımdır ki, yerinə yetirilməmiş müqavilələr sayına görə **416-sı 2025**-ci ilin noyabr, dekabr aylarında bağlanmış müqavilələrdir.

***Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilməmiş müqavilələrin sayı (ədədlə)***




***Diaqram 12***

***Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilməmiş müqavilələrin məbləği (mln. manatla)***




***Diaqram 13***

O cümlədən:

- Böyük dördlük üzrə **25,0** mln. manat dəyərində **230**-u;

- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə **9,6** mln. manat dəyərində **300**-ü;

- Yerli auditor təşkilatları üzrə **2,8** mln. manat dəyərində **387**-si;

- Sərbəst auditorlar üzrə **380,0** min manat dəyərində **84**-ü yerinə yetirilməmişdir.

**Məcburi və könüllü audit subyektləri üzrə yerinə yetirilmiş müqavilələr**

**2025**-ci il ərzində yerinə yetirilmiş **6783** müqavilədən **4665-i** məcburi auditin subyekti, **2118-i** isə könüllü auditin subyekti olmuşdur. Bu da uyğun olaraq **69,0%** (məcburi auditin subyekti) və **31,0%** (könüllü auditin subyekti) təşkil etmişdir ***(Diaqram 14).***

***2025-ci il ərzində icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi***




***Diaqram 14***

**2024**-cü il ilə müqayisədə **2025**-ci ildə məcburi auditdən keçən təsərrüfat subyektlərinin sayı **49,9%-**dən **69,0%-**ə qədər artmış, könüllü auditdən keçən təsərrüfat subyektlərinin sayı isə **50,1**%-dən **31,0**%-ə qədər **azalmışdır** ***(Diaqram 15).***

***2024-2025-ci illər üçün icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi***




***Diaqram 15***

**2025-ci il ərzində respublika üzrə 6140 məcburi audit subyektindən 4660-ı (76,0%) auditdən keçmişdir** ***(Cədvəl 8).***

***Cədvəl 8***

| Məcburi audit subyektinin təşkilati-hüquqi forması | Respublika üzrə məcburi audit subyektlərinin sayı | 2025-cü il üzrə məcburi auditdən keçən təsərrüfat subyektlərinin sayı | auditdən keçmə %-i |
|---|---|---|---|
| ***Səhmdar cəmiyyətləri*** | **353** | **334** | **94,6%** |
| ***Məhdud məsuliyyətli cəmiyyətlər*** | **4889** | **3650** | **74,6%** |
| ***Publik hüquqi şəxslər*** | **147** | **92** | **62,6%** |
| ***Bələdiyyələr*** | **685** | **523** | **76,3%** |
| ***Banklar*** | **22** | **22** | **100,0%** |
| ***Sığorta təşkilatları*** | **18** | **18** | **100,0%** |
| ***Siyasi partiyalar*** | **26** | **21** | **80,8%** |
| ***CƏMİ*** | **6140** | **4660** | **76,0%** |

### Yerinə yetirilmiş müqavilələr üzrə verilmiş rəylər

**2024**-cü il ərzində aparılan auditlərin nəticələrinə dair verilmiş rəylərin növləri üzrə təhlilin nəticəsi aşağıdakı cədvəldə qeyd olunmuşdur ***(Cədvəl 9).***

***Cədvəl 9***

| Aparılan auditlərin nəticələrinə dair verilmiş rəylərin növləri üzrə təhlili | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Müsbət rəylərin sayı (ədədlə) | | Şərti müsbət rəylərin sayı (ədədlə) | | Mənfi rəylərin sayı (ədədlə) | | Rəy verilməsindən imtina | |
| | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 |
| Böyük dördlük üzrə | 137 | 178 | 32 | 24 | 0 | 0 | 1 | 0 |
| Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə | 325 | 392 | 40 | 61 | 0 | 0 | 1 | 0 |
| Yerli auditor təşkilatları üzrə | 2653 | 2999 | 794 | 908 | 14 | 30 | 1 | 11 |
| Sərbəst auditorlar üzrə | 839 | 761 | 347 | 308 | 5 | 7 | 2 | 0 |
| CƏMİ | 3954 | 4330 | 1213 | 1301 | 19 | 37 | 5 | 11 |

Cədvəl 9-da **2024-2025-ci** illər ərzində yerinə yetirilmiş müqavilələr üzrə aparılan auditlərin nəticələrinə dair verilmiş rəylərin növlərinin statistikası qeyd edilmişdir. Aparılmış təhlillin nəticəsi olaraq, **2025-ci** ildə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılan auditlərdə mənfi rəy verilmə və rəydən imtina edilmə halları müşahidə edilmişdir ***(Cədvəl 10-11).***

**Mənfi rəy vermiş üzvlər**

***Cədvəl 10***

| **Auditor təşkilatları** | | |
|---|---|---|
| **Auditor təşkilatının adı, direktorunun adı, ata adı, soyadı** | **Xidmət növləri** | **Müqavilə sayı** |
| **"A Audit and Consulting" MMC**<br><br>Direktor: Əliyev Rüfət Yaqub oğlu | DX | 1 ədəd |
| **"Azəruçot" MMC**<br><br>Direktor: Təhməzov Eldar Azay oğlu | MHA | 3 ədəd |
| **"EGA Finance" MMC**<br><br>Direktor: Yaqublu Araz Natiq oğlu | MHA | 1 ədəd |
| **"Ekol Audit" MMC**<br><br>Direktor: Qulizadə Elçin İlham oğlu | MHA<br>SDOSA | 19 ədəd |
| **"FAM Group Audit" MMC**<br><br>Direktor: Hüseynov Mirkazim Mirəyyar oğlu | MHA | 1 ədəd |
| **"Himmara Audit" MMC**<br><br>Direktor: Abbaszadə Elnur Vüqar oğlu | MHA | 1 ədəd |
| **"NİAC" MMC**<br><br>Direktor: İbadov Elşən Cabir oğlu | DX | 2 ədəd |
| **"RTH Audit" MMC**<br><br>Direktor: Hüseynov Rəşad Tofiq oğlu | MHA | 2 ədəd |

| Sərbəst auditorlar | | |
|---|---|---|
| Ağayev Akif<br>Ağa oğlu | DX<br>MHA<br>SDOSA | 4 ədəd |
| Fətiyev Üzeyir | MHA | 1 ədəd |
| Verdiyev Yaqub<br>Hacəli oğlu | SDOSA | 2 ədəd |

**Rəydən imtina edən üzvlər**

***Cədvəl 11***

| Auditor təşkilatları | | |
|---|---|---|
| **Auditor təşkilatının adı, direktorunun adı, ata adı, soyadı** | **Xidmət növləri** | **Müqavilə sayı** |
| **"Audit EXPERT TV" MMC**<br><br>**Direktor:** Talıbov Vidadi Musa oğlu | MHA | 1 ədəd |
| **"Ekol Audit" MMC**<br><br>Direktor: Qulizadə Elçin İlham oğlu | MHA | 7 ədəd |
| **"Professional Auditor xidmətləri" MMC**<br><br>Direktor: Şirinova Şahzadə Nizami qızı | DX | 1 ədəd |
| **"TNM Audit" MMC**<br><br>Direktor: Talıbov Nəcəf Musa oğlu | MHA | 2 ədəd |

## V. AUDİTOR XİDMƏTİNİN KEYFİYYƏTİNƏ KƏNAR NƏZARƏT

2025-ci ildə 47 auditor təşkilatının və 14 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun araşdırılması planlaşdırılmışdır. Bunlardan 1 auditor təşkilatı və 3 sərbəst auditor fəaliyyətini dayandırmış, 2 auditor təşkilatının monitorinqinin keçirilməsi növbəti illərə keçirilmişdir. Beləliklə 3 auditor təşkilatı və 3 sərbəst auditoru çıxdıqdan sonra 44 auditor təşkilatının (2 auditor təşkilatının plandankənar) və 11 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun araşdırılması aparılmışdır.

2024-cü ildə monitorinqi keçirilmiş 1 auditor təşkilatının nəticəsi isə 2025-ci ildə təsdiq edilmişdir.

Auditorlar Palatası Şurasının 2023-cü il 28 dekabr tarixli 362/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Auditor Xidmətinin Keyfiyyətinə Kənar Nəzarət Üzrə Qaydalar"ın 2.21-ci "Monitorinq nəzarət qrupu və Şöbə tərəfindən təyin edilən iclasla yekunlaşdırılır. İclasın vaxtı fəaliyyəti monitorinq olunmuş auditorun rəhbəri ilə razılaşdırılır"

bəndinə uyğun olaraq aparılmış monitorinqlərin nəticələrinə müvafiq tərtib edilmiş hesabatlar Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsində müzakirə edilərək təsdiq edilmişdir.

6 auditor təşkilatının və 2 sərbəst auditorun fəaliyyəti keyfiyyətli A (5), 21 auditor təşkilatının və 3 sərbəst auditorun fəaliyyəti qənaətbəxş B (4), 16 auditor təşkilatının və 4 sərbəst auditorun fəaliyyəti qismən qənaətbəxş C (3), 1 auditor təşkilatının və 2 sərbəst auditorun fəaliyyəti qeyri-qənaətbəxş D (2) qiymətləndirilmişdir.




Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2009-cu il 30 dekabr tarixli 206/7 saylı qərarı ilə 01 yanvar 2010-cu il tarixdən etibarən, Respublikada Beynəlxalq Audit Standartlarının tətbiqinə başlanılmasına baxmayaraq, auditor təşkilatları və sərbəst auditorlar çox hallarda auditor xidməti göstərərkən Beynəlxalq Audit Standartlarının tələblərinə tam riayət etməmişdirlər:

| | 2024 | | | 2025 | | |
|---|---|---|---|---|---|---|
| | Plan-qrafiklər üzrə nəzərdə tutulmuş | Araşdırmadan keçənlər (o cümlədən plandankənar) | Xüsusi çəkisi faizlə | Plan-qrafiklər üzrə nəzərdə tutulmuş | Araşdırmadan keçənlər (o cümlədən plandankənar) | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 35 | 34 | 97 | 44 | 44 | 100 |
| Sərbəst auditorlar | 12 | 12 | 100 | 11 | 11 | 100 |

Auditor təşkilatları və sərbəst auditorların Beynəlxalq Audit Standartlarının tələblərinə riayət etmələri aşağıdakı cədvəllərdə öz əksini tapmışdır:

| | **200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 2 | 5.8 | 44 | 1 | 2.2 |
| Sərbəst auditorlar | 12 | 1 | 8.3 | 11 | - | - |

200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 2-i (5.8%), 12 sərbəst auditordan isə 1-i (8.3%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 1-i (2.2%) əməl etməmişdir.

| | **210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 2 | 5.8 | 44 | 3 | 6.8 |
| Sərbəst auditorlar | 12 | 1 | 8.3 | 11 | - | - |

210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 2-i (5.8%), 12 sərbəst auditordan isə 1-i (8.3%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 3-ü (6.8%) əməl etməmişdir.

| | 230 saylı **"Auditin sənədləşdirilməsi" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 11 | 32.3 | 44 | 12 | 27.2 |
| Sərbəst auditorlar | 12 | 3 | 25 | 11 | 5 | 45.4 |

230 saylı "Auditin sənədləşdirilməsi" Beynəlxalq Audit Standartına tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 11-i (32.3%), 12 sərbəst auditordan isə 3-ü (25%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 12-i (27.2%), 11 sərbəst auditordan isə 5-i (45.4%) əməl etməmişdir.

| | 250 saylı **“Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması” Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 3 | 8.8% | 44 | 1 | 2.7 |
| Sərbəst auditorlar | 12 | 1 | 8.3% | 11 | - | - |

250 saylı “Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması” Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 3-ü (8.8%), 12 sərbəst auditordan isə 1-i (8.3%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 1-i (2.7%) əməl etməmişdir.

| | 300 saylı **"Maliyyə hesabatlarının auditinin planlaşdırılması" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 12 | 35.3% | 44 | 5 | 11.3 |
| Sərbəst auditorlar | 12 | 5 | 41.6% | 11 | 1 | 9.1 |

300 saylı “Maliyyə hesabatlarının auditinin planlaşdırılması” Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 12-i (35.3%), 12 sərbəst auditordan isə 5-i (41.6%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 5-i (11.3%), 11 sərbəst auditordan isə 1-i (9.1%) əməl etməmişdir.

| | 500 saylı **“Audit sübutu” Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 15 | 44.1 | 44 | 31 | 70.4 |
| Sərbəst auditorlar | 12 | 6 | 50 | 11 | 5 | 45.4 |

500 saylı “Audit sübutu” Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 15-i (44.1%), 12 sərbəst auditordan isə 6-ı (50%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 31-i (70.4%), 11 sərbəst auditordan isə 5-i (45.4%) əməl etməmişdir.

| | 501 saylı **"Audit sübutu – seçilmiş maddələr üzrə xüsusi mülahizələr" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 14 | 41.1% | 44 | - | - |
| Sərbəst auditorlar | 12 | 5 | 41.6% | 11 | - | - |

501 saylı "Audit sübutu - seçilmiş maddələr üzrə xüsusi mülahizələr" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 14-ü (41.1%), 12 sərbəst auditordan isə 5-i (41.6%) əməl etməmişdir. 2025-ci ildə isə həmin standartın tələblərinə əməl etməyən olmamışdır.

| | 505 saylı **"Kənar mənbədən təsdiqləmələr" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 19 | 55.8 | 44 | 35 | 79.5 |
| Sərbəst auditorlar | 12 | 9 | 75 | 11 | 10 | 90.9 |

505 saylı "Kənar mənbədən təsdiqləmələr" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 19-u (55.8%), 12 sərbəst auditordan isə 9-u (75%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 35-i (79.5%), 11 sərbəst auditordan isə 10-u (90.9%) əməl etməmişdir.

| | 520 saylı **"Analitik prosedurlar" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | - | - | 44 | 4 | 9.1 |
| Sərbəst auditorlar | 12 | - | - | 11 | - | - |

520 saylı "Analitik prosedurlar" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə həmin standartın tələblərinə əməl etməyən olmamışdır. 2025-ci ildə isə 44 auditor təşkilatından 4-ü (9.1%) əməl etməmişdir.

| | 700 saylı **"Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 3 | 8.8 | 44 | 9 | 20.4 |
| Sərbəst auditorlar | 12 | 2 | 16.6 | 11 | 1 | 9.1 |

700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 3-ü (8.8%), 12 sərbəst auditordan isə 2-i (16.6%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 9-u (20.4%), 11 sərbəst auditordan isə 1-i (9.1%) əməl etməmişdir.

| | 705 saylı **"Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 2 | 5.8 | 44 | 4 | 9.1 |
| Sərbəst auditorlar | 12 | 1 | 8.3 | 11 | - | - |

705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 2-i (5.8%), 12 sərbəst auditordan 1-i (8.3%) əməl etməmişdir. 2025-ci ildə isə 44 auditor təşkilatından 4-ü (9.1%) əməl etməmişdir.

| | 720 saylı **"Auditi aparılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti" Beynəlxalq Audit Standartına əməl etməyənlər** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | | | 2025 | | |
| | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə | Araşdırmadan keçənlərin ümumi sayı | Əməl etməyənlər | Xüsusi çəkisi faizlə |
| Auditor təşkilatları | 34 | 2 | 5.8 | 44 | - | - |
| Sərbəst auditorlar | 12 | 1 | 8.3 | 11 | 1 | 9.1 |

720 saylı "Auditi aparılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti" Beynəlxalq Audit Standartının tələblərinə 2024-cü ildə 34 auditor təşkilatından 2-i (5.8%), 12 sərbəst auditordan 1-i (8.3%) əməl etməmişdir. 2025-ci ildə 11 sərbəst auditordan 1-i (9.1%) əməl etməmişdir.

Əlavə olaraq Auditorlar Palatasına daxil olan şikayətlər əsasında aparılmış plandankənar monitorinqlərin təsviri aşağıdakı kimidir:




## VI. AUDİTOR KADRLARININ HAZIRLANMASI VƏ PEŞƏ-İXTİSAS SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ

Azərbaycanda beynəlxalq tələblərə uyğun fəaliyyət göstərməyə qadir olan auditor kadrlarının hazırlanması, onların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məsələləri Auditorlar Palatasının fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir. Bu sahədə Auditorlar Palatası Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Təhsil Standartlarına müvafiq olaraq auditor kadrlarının hazırlanmasını və davamlı peşə təhsilinin yüksəldilməsini daim diqqət mərkəzində saxlayır.

### 6.1. Auditor adı almaq üçün imtahanların keçirilməsi

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2025-ci il 02 may tarixli 376/4 "Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları" na uyğun olaraq, 2025-ci ildə auditor adı almaq üçün ənənəvi qaydada 3 imtahan keçirilmişdir. İcazənin qüvvədə olma müddətinin başa çatması ilə əlaqədar 12 şəxsdən 7-si müvəffəq, 1-i ilə qeyri-müvəffəq qiymət almış, 4 nəfər isə imtahanda iştirak etməmişdir. Yeni auditor adı almaq üçün təşkil edilmiş imtahanlarda 78 nəfər iştirak etmiş, onlardan 52-i nəfəri müvəffəq, 23 nəfəri qeyri-müvəffəq bal toplamış, 3 nəfər isə imtahanda iştirak etməmişdir.



**6.2. Auditorların ixtisasartırma kurslarının keçirilməsi**

Auditorlar Palatasının Kadr hazırlığı idarəsi tərəfindən 2025-cü il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramı hazırlanmış və Palata Şurasının 2025-ci il 13 iyun tarixli 377/5 saylı qərarı ilə təsdiq edilmişdir.

2025-ci il ildə iki ixtisasartırma kursu təşkil edilmişdir. Kurslar I və II qruplardan ibarət olmaqla sentyabr – oktyabr aylarında keçirilmişdir. Kurslarda 331 nəfər auditordan 276 nəfəri iştirak etmiş və onlardan 266 nəfər müvəffəq, 10 nəfər isə qeyri-müvvəfəq bal toplamışdır. Müvəffəq bal toplamış auditorlara sertifikatlar təqdim edilmişdir.

**6.3. Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının təşkili**

Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün iyun, iyul, noyabr və dekabr aylarında onlayn formatda kurslar keçirilmişdir. Kursların yekunu olaraq onlayn imtahan təşkil edilmiş, müraciət etmiş 65 nəfərdən 42-si imtahanda iştirak etmiş və müvəffəq bal toplamış, 23 nəfər isə imtahanda iştirak etməmişdir. İmtahanda müvəffəq bal toplayan iştirakçılara sertifikat təqdim olunmuşdur.

## VII. KONFRANSLAR, «DƏYİRMİ MASA”LAR, SEMİNARLAR, USTAD DƏRSLƏRİ VƏ DİGƏR TƏDBİRLƏR

### 7.1. KONFRANSLAR

***“Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş “Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının müdafiəsinin təminatçısı kimi” mövzusunda konfrans keçirilmişdir.***

Ölkə Prezidenti İlham Əliyev cənabları tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi və bununla bağlı “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə 2025-ci il 13 mart tarixində "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının qorunmasının təminatçısı kimi" mövzusunda konfrans keçirilmişdir.

Konfrans öz işinə başlamazdan əvvəl tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin büstünü və Vətən uğrunda canından keçmiş şəhidlərin kompleksini ziyarət edərək onların əziz xatirəsini dərin ehtiramla yad edib, abidələri önünə gül dəstələri düzmüşlər.

Konfransda açılış nitqi ilə çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov qonaqları salamlamış, tədbirin əhəmiyyətindən bəhs etmiş və konfransın işinə uğurlar arzulamışdır. Tədbirdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli "Vergi islahatlarının maliyyə nəzarətinin gücləndirilməsinə və özəl sektorda uçot sisteminin bərpasına təsiri", Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov "Rəqəmsal gömrük: Ticarətin asanlaşdırılması və büdcə dayanıqlılığı kontekstində", Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədr müavini Azər Abbasov "ƏL/TMM-ə qarşı mübarizə ölkənin maliyyə təhlükəsizliyinin mühüm amili kimi", Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov "Maliyyə təhlükəsizliyi və kadr hazırlığına yeni dövrün çağırışları", Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə "Azərbaycan Respublikasında maliyyə nəzarətinin qanunvericilik bazası və onun təkmilləşdirilməsi məsələləri", Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov "Audit konstitusiya və suverenlik zəminində", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanov "Süni intellektin maliyyə nəzarətində istifadə imkanları", Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Maliyyə və audit" kafedrasının müdiri Əvəz Ələkbərov "Maliyyə şəffaflığı, elm və praktikanın vəhdəti: müasir çağırışlar", Azərbaycan Respublikası Hesablama Palatasının şöbə müdiri Zaur Vəliyev "İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət auditinin rolu", Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdiri Firuzə Abdullayeva "Dövlət maliyyə nəzarəti və audit", Azərbaycan Respublikası Auditorlar Palatasının Şura üzvü, sərbəst auditor Altay Cəfərov "Özəl sektorun dayanıqlı inkişafında və qanuni mənafelərin qorunmasında auditin rolu", Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Elşad Səmədzadə "Maliyyə nəzarəti konstitusiya hüquqlarının keşiyində", Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "SR Audit Solutions" MMC-nin

direktoru Səftər Vəlizadə “Qanunsuz yolla əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə müstəqil auditin rolu və vəzifələri”, “Bakı Metropoliteni” QSC-nin Daxili audit departamentinin rəisi Elvin Hacıyev “Dövlət investisiya layihələrinin səmərəliliyinin təmin olunmasında maliyyə nəzarətinin rolu” mövzularında məruzələrlə çıxış etmişlər və faydalı fikir mübadiləsi aparılmışdır.

Konfransda dövlət qurumlarının nümayəndələri, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyəti, Auditorlar Palatasının üzvləri və kollektivi, Azərbaycan İqtisadçılar İttifaqının nümayəndələri iştirak etmişlər.







* * *

***“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.***

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı” Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə ölkəmizin müvafiq qurumlarının, habelə xarici ölkələrin (İsrail, Pakistan, Latviya) audit və mühasibatlıq qurumlarının rəhbərləri və ƏL/TMM üzrə mütəxəssislərinin iştirakı ilə 2025-ci ilin 23 may tarixində “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti” mövzusunda beynəlxalq elmi-praktik konfransı keçirilmişdir.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə, Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Anar Axundov, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Corc Dik, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Saif Ullah və İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti Çen Şrayber açaraq, tədbirin əhəmiyyətindən bəhs etmişlər və konfransın işinə uğurlar arzulamışlar. Konfransda həmçinin Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Saif Ullah “ƏL/TM-ə qarşı mübarizədə Pakistan təcrübəsi”, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva “ƏL/TMM sahəsində Vergi Xidməti və əlaqəli qurumların rolu”, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə “Real sektorda sağlam rəqabət mühitinin yaradılması kölgə iqtsadiyyatının azaldılması, çirkli pulların yuyulmasına qarşı mübarizənin strateji amili kimi”, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov “Təhsilin fərdiləşdirilməsi və dəyərlərin prioritetləşdirilməsi - mübarizənin uğur modeli”, Türkiyənin Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) Beynəlxalq əlaqələr departamentinin rəhbəri Seher Gündoğdu “Türkiyədə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində təlim, məlumatlandırma və əməkdaşlıq istiqamətlərində TÜRMOB-un fəaliyyətinin səmərəliliyi”, İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) İdarə Heyətinin üzvü, İqtisadi Cinayətlərə və Çirkli Pulların Yuyulmasına Qarşı Mübarizə Komitəsinin sədri Simon Yaniv “İsraildə çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə qanunvericiliyin prinsipləri”, Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru Fuad İsayev “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Mərkəzi Bankının rolu”, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov “Müşahidə olunmayan

iqtisadiyyatın statistik qiymətləndirilməsi", İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) Direktorlar Şurasının üzvü, Blokçeyn və Kriptovalyutalar üzrə Komitəsinin sədri Roi Katz "Çirkli pulların yuyulmasına qarşı mübarizədə mövcud bank qaydaları", Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin direktoru Nurlan Babayev "ƏL/TMM üzrə risk əsaslı nəzarət konsepsiyası", Azərbaycan Respublikası Hesablama Palatasının Dövlət gəlirlərinin və iqtisadi sahələrin auditi şöbəsinin müdiri Azim Abbasov "Dövlət vəsaitinin mənimsənilməsinə qarşı mübarizədə Hesablama Palatasının rolu", Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyasının (LZRA) üzvü, ƏL/TMM üzrə mütəxəsis Kiril Kondratovs "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə və sanksiyalarda andlı auditorların rolu", Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Tural Vəlibəyov "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi, bu məlumatlara olan ehtiyacların təhlil edilməsi və mütərəqqi çağırışlara yönələn tədbirlərin həyata keçirilməsi üçün təkliflər", İsrailin Enerji infrastrukturu üzrə şirkətinin icraçı direktorunun müavini və maliyyə rəhbəri Eli Zuker "Böyük korporasiyalarda maliyyə rəhbərləri üçün ƏL/TMM üzrə qanunvericiliyin təsirləri", Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Audit şöbəsinin müdiri Ramil Əliyev "Çirkli pulların yuyulmasına qarşı mübarizədə etik davranış və institusional məsuliyyət: Həmkarlar ittifaqlarının rolu", Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi Elnur İbrahimov "Azərbaycan Respublikası Auditorlar Palatasının nəzarət oqanı kimi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə iştirakı", Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov "Auditorların peşə etik tələbləri və ƏL/TMM qanunvericiliyi", Auditorlar Palatasının Şurası yanında ƏL/TMM üzrə komitənin sədri, "VXA Audit" MMC-nin direktoru Elçin Qurbanov "ƏL/TMM fəlsəfəsi və bu barədə ictimai şüurun formalaşdırılması", Auditorlar Palatasının üzvü, "SR Audit Solutions" MMC-nin direktoru Səftər Vəlizadə "ƏL/TM-ə qarşı mübarizədə müstəqil auditin potensial imkanları", Auditorlar Palatasının üzvü, sərbəst auditor Şamxal Kərimov "ƏL/TMM-də Süni İntellektin tətbiqi və onun kadr təminatı" mövzusunda məruzələrlə çıxış etmişlər.












## 7.2. DƏYİRMİ MASALAR

| | |
|---|---|
| **16.01.2025** | **“Haqsız rəqabət hallarının qarşısının alınması barədə”** |
| **24.01.2025** | **“Tender və katirovkalar ilə əlaqədar aidiyyəti qurumlara göndərilməsi üçün təkliflərin hazırlanması barədə”** |
| **18.03.2025** | **“Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması üçün xüsusi bir mexanizmin yaradılması və tətbiq edilməsi”** |
| **18.03.2025** | **“Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin verilməsi”** |
| **24.07.2025** | **“Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması”** |
| **03.09.2025** | **“Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin işlənib hazırlanması”** |
| **07.11.2025** | **“Təsərrüfat subyektlərində maliyyə hesabatlılığı və audit”** |

## 7.3. SEMİNARLAR

| | |
|---|---|
| **31.01.2025** | **“Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqi” və “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri”** |

| | |
|---|---|
| **14.02.2025** | **“Qanunvericilik aktlarının yenilənməsi və onun Azərbaycan auditinə təsiri”** |
| **25.02.2025** | **“Fasiləsiz (davamlı) audit və hesabatlılıq: müasir yanaşmalar” və 260 saylı (düzəliş edilmiş) “İdarəetməyə məsul şəxslərlə əlaqə BAS-a məhdud düzəlişlərə dair şərh”** |
| **25.02.2025** | **“Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası”** |
| **10.03.2025** | **“Az Mürəkkəb Təşkilatların Maliyyə Hesabatlarının Auditləri üzrə Beynəlxalq Audit Standartının tətbiqi ilə bağlı Təlimat”** |
| **10.03.2025** | **“Audit meyarları”** |
| **10.03.2025** | **“Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar”** |
| **14.05.2025** | **“Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”** |
| **14.05.2025** | **“ƏL/TMM qanunvericiliyinin pozulması ilə bağlı məsuliyyət”** |
| **04.06.2025** | **“Publik hüquqi şəxslər və korporativ idarəetmə”** |
| **19.06.2025** | **“600 saylı (düzəliş edilmiş) BAS "Xüsusi mülahizələr-qrup maliyyə hesabatlarının auditi" və 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlərə dair şərh barədə”** |
| **14.10.2025** | **“Kibertəhlükəsizlik və audit”** |
| **19.11.2025** | **“Auditdə rəqəmsal transformasiya: çağırışlar və imkanlar”** |

## 7.4. USTAD DƏRSLƏRİ

| | |
|---|---|
| **14.10.2025** | **“Auditdə Süni intellektdən istifadə”** |
| **19.11.2025** | **“İnnovativ audit yanaşmaları: yeni texnologiyalar və innovativ yanaşmaların audit proseslərinə tətbiqi”** |

## 8.5. DİGƏR TƏDBİRLƏR

| | |
|---|---|
| **18.01.2025** | **Auditorlar Palatasında “20 yanvar” faciəsinin 35-ci ildönümünə həsr olunmuş onlayn tədbir” keçirilmişdir.** |
| **31.01.2025** | **Auditorlar Palatasında “Gənclər Günü”nə həsr edilmiş onlayn tədbir keçirilmişdir.** |
| **26.02.2025** | **Auditorlar Palatasında “Xocalı Soyqırımı”nın 33-cü ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.** |
| **04.04.2025** | **Auditorlar Palatasında “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) təqdimat mərasiminə həsr edilmiş onlayn tədbir keçirilmişdir.** |



| | |
|---|---|
| **08.05.2025** | **Auditorlar Palatasında Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilmişdir.** |






| | |
|---|---|
| **24.05.2025** | **Azərbaycan Dövlət İqtisad Universitetində İsrail, Pakistan, Latviya ölkələrinin mütəxəssislərinin və Auditorlar Palatasının üzvlərinin iştirakı ilə ƏL/TMM sahəsində seminar keçirilmişdir.** |


Hərə bir qəhrəman oldu!
UNEC
UNEC
UNEC




UNEC
95
UNEC






UNEC
95
UNEC
95

| | |
|---|---|
| 02.06.2025 | **Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin 2025-ci il 23 aprel tarixli 28 nömrəli "İttifaq üzvlərinin 6-15 yaşlı övladları(nəvələri) arasında Qlobal iqlim dəyişikliyi ilə mübarizəyə həsr olunmuş "Ekologiya-mənim fırçamda" mövzusunda keçirilmiş rəsm müsabiqəsinin yekunları barədə" qərarına uyğun olaraq Auditorlar Palatasında rəsm müsabiqəsində iştirak etmiş Palatnın həmkarlar ittifaqı üzvlərinin övladlarının mükafatlandırılması məqsədilə tədbir keçirilmişdir.** |





**10.06.2025** **Auditorlar Palatasında "18 İyun – İnsan Hüquqları Günü"nə həsr edilmiş tədbir keçirilmişdir.**



| | |
|---|---|
| **13.06.2025** | **Auditorlar Palatasında “15 iyun-Milli Qurtuluş Günü”nə həsr olunmuş onlayn tədbir keçirilmişdir.** |





| | |
|---|---|
| **24.09.2025** | **Auditorlar Palatasında ƏL/TMM üzrə monitorinqlərin aparılmasında iştirak edən müfəttişlər üçün “Sahəvi və institusional risk qiymətləndirilməsi” mövzusunda təlim (ixtisasartırma kursu) keçirilmişdir.** |

| | |
|---|---|
| **25.09.2025** | **Auditorlar Palatasında Palatanın rəhbərliyinin, əməkdaşlarının, üzvlərinin və şəhid analarının iştirakı ilə 27 sentyabr - Anım Gününün beşinci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilmişdir.** |




| | |
|---|---|
| **27.09.2025** | **Auditorlar Palatasının kollektivi Anım Günü münasibətilə Zəfər parkını ziyarət etmişdir.** |



| | |
|---|---|
| **05.11.2025** | **Auditorlar Palatasında 8 noyabr “ZƏFƏR Günü”nün 5 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.** |




| | |
|---|---|
| **12.11.2025** | **Auditorlar Palatasının əməkdaşları SİNAM şirkətinin baş sponsorluğu, Sumqayıt Dövlət Universiteti, Bursa Uludağ Universiteti, Xəzər Universiteti, Azərbaycan Respublikası Auditorlar Palatası, KOBİA, Azərbaycan Sahibkarlar Konfederasiyası(ASK), Türkiyə Cümhuriyyəti İctimai Nəzarət, Mühasibat və Audit Standartları Qurumu (KGK), MÜSİAD Azərbaycan, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin (İATM) təşkilatçılığı ilə “I Beynəlxalq maliyyə, mühasibat, audit və rəqəmsallaşma” simpoziumunda iştirak etmişlər.** |




SUMQAYIT DÖVLƏT
UNİVERSİTETİ
IFAD
SINAM


IFAD
SINAM




| | |
|---|---|
| **21.11.2025** | **Auditorlar Palatasında Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Respublika Qan Bankının həyata keçirdiyi “Talassemiyasız həyat naminə” proqramına dəstək məqsədilə qanvermə aksiyası keçirilmişdir.** |



| | |
|---|---|
| **27.11.2025** | **Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov Avropa İttifaqı və Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı III (PGG) çərçivəsində həyata keçirilən “Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə” layihəsi üzrə təşkil olunan “Satınalmalarda saxtakarlıq hallarının qarşısının alınması və onunla mübarizə” mövzusunda keçirilən təlimdə iştirak etmişdir.** |




| | |
|---|---|
| **28.11.2025** | **Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədov İş Adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) “Hüquq, maliyyə və biznes konsultasiyası” Komissiyasının təşəbbüsü və təşkilatçılığı ilə sektorial görüşdə iştirak etmişdir.** |



**10.12.2025** **Auditorlar Palatasında müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş onlayn tədbir keçirilmişdir.**





| | |
|---|---|
| **17.12.2025** | **Auditorlar Palatasının kollektivi Mirzə Qədim İrəvaninin 200 illik yubileyinə həsr olunmuş "Şərq və Qərb üslublarının qovşağında" adlı sərgini ziyarət etmişlər.** |





Eyni zamanda, 2025- ci ildə Auditorlar Palatasında Palatanın üzvləri "Azel Audit" MMC-nin direktor-auditoru Süleymanova Elzadə Süleyman qızının,"Ekol Audit" MMC-nin auditoru Rəhimov Vəli Rəhim oğlunun,"Forum" məhdud məsuliyyətli auditor müəssisəsinin auditoru Abdullayev Yaqub Həsən oğlunun, sərbəst auditor Hacı-Əzizov İlham İsfəndiyar oğlunun 60 illik, "PRO AUDİT" MMC-nin direktor-auditoru Hüseynzadə Dəyanət Telman oğlunun, "Berc Audit" MMC-nin direktor-auditoru Rəsulzadə Elnur Cəsayil oğlunun və sərbəst auditor İbrahimov Elnur Elxan oğlunun 50 illik yubileyləri qeyd edilmişdir

## VIII. BEYNƏLXALQ ƏLAQƏLƏR

***Auditorlar Palatasının nümayəndə heyəti Dünya Bankının təşkilatçılığı və Avstriyanın Maliyyə Nazirliyinin ev sahibliyi ilə keçirilmiş beynəlxalq konfransda iştirak etmişlər.***

2025-ci ilin 17-19 mart tarixlərində Auditorlar Palatasının sədri professor Vahid Novruzovun rəhbərlik etdiyi nümayəndə heyəti Dünya Bankının Maliyyə və Dayanıqlı İnkişaf Hesabatlılığı üzrə İslahatlar Mərkəzinin (CFRR) təşkilatçılığı və Avstriya Respublikası Maliyyə Nazirliyinin ev sahibliyi ilə Avstriya Respublikasının paytaxtı Vyanada keçirilmiş "Maliyyə və Dayanıqlı İnkişaf Hesabatlılığı İslahatları: Yaşıl və Rəqəmsal Gündəliklər üzrə Naviqasiya" mövzusunda Nazirlər Konfransında, "Mühasibat uçotu və auditdə islahatlar" forumunda və "Dayanıqlı inkişafa dair hesabatlılıq" üzrə seminarda iştirak etmişlər.

Tədbirlərin təşkil edilməsində məqsəd korporativ maliyyə hesabatlarında, həmçinin davamlı inkişafa dair hesabatlarda və süni intellektin tətbiqində yeni dövrün tələblərinə və çağırışlarına ən yaxşı şəkildə necə cavab veriləcəyini müzakirə etmək, regional miqyasda, eləcə də milli səviyyədə atılacaq növbəti addımları razılaşdırmaq üçün 11 benefisiar ölkədən – Azərbaycan, Albaniya, Bosniya və Herseqovina, Ermənistan, Gürcüstan, Kosova, Moldova, Monteneqro, Serbiya, Şimali Makedoniya və Ukraynadan olan nümayəndələri bir araya gətirməkdən ibarət olmuşdur.

Ölkəmizin bir sıra dövlət və özəl sektorunun nümayəndələrinin iştirak etdiyi tədbirdə Avropa İttifaqının korporativ sektor üçün yaşıl və rəqəmsal siyasəti; dövlətə məxsus müəssisələrin iqlim dəyişikliyi ilə bağlı fəaliyyəti; maliyyə və dayanıqlılıq hesabatına dair islahatların yaratdığı imkanlar; dövlət və korporativ sektor üzrə dayanıqlılıq hesabatı; süni intellekt – mühasibatlıq və audit üçün risklər və imkanlar; dayanıqlı inkişafa dair hesabatlılığın rəqəmsal platformalar üzərindən əlçatanlığının təmin edilməsi və digər mövzularda müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Tədbir zamanı Palatanın nümayəndələri tərəfindən Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə əməkdaşlığı ilə

COP29 çərçivəsində nəşr olunmuş “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimat konfrans iştirakçılarına təqdim edilmiş və maraqla qarşılanmışdır.

Tədbirlər çərçivəsində mühasiblərin və auditorların beynəlxalq peşəkar tənzimləyicisi olan və Azərbaycan Respublikası Auditorlar Palatasının 2008-ci ildən tam hüquqlu üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) icraçı direktoru Li Uaytın rəsmi dəvətinə əsasən Palatanın sədri V.Novruzov işgüzar görüşdə iştirak etmişdir.




* * *

***Auditorlar Palatasının nümayəndə heyəti London şəhərində İngiltərə və Uelsin İmtiyazlı Mühasiblər İnstitutunun rəhbər heyəti ilə işgüzar görüşdə iştirak etmişdir.***

Azərbaycan Respublikası Prezidentinin proqram xarakterli tapşırıq və tövsiyələrini rəhbər tutaraq beynəlxalq təcrübənin öyrənilməsi və ölkə qanunvericiliyinin xüsusiyyətləri nəzərə alınmaqla tətbiqi məqsədilə əldə edilmiş razılığa və İngiltərə və Uelsin İmtiyazlı Mühasiblər İnstitutunun (ICAEW) prezidenti Malkolm Bakusun dəvətinə əsasən iki qurum arasında əməkdaşlığın qurulması və işgüzar müzakirələrin aparılması üçün 2025-ci il mayın 6-da Auditorlar Palatasının sədri Vahid Novruzovun rəhbərlik etdiyi nümayəndə heyəti Böyük Britaniyanın paytaxtı London şəhərində qurumun baş qərargahında işgüzar görüşdə iştirak etmişdir.

Görüş zamanı iki qurum arasında yeni nəsil kadrların hazırlanması və yenidən hazırlanması sahəsində əməkdaşlıq, auditin institusional potensialının artılması və ona

ictimai etimadın gücləndirilməsi sahəsində birgə işlərin görülməsi, davamlı inkişafa dair hesabatlılığın təmin edilməsində yeni dövrün tələblərinə və çağırışlarına cavab verən auditorların yetişdirilməsi, beynəlxalq fondların dəstəyi ilə auditdə innovasiyaların və süni intellektin tətbiqinə dair əməkdaşlıq, peşənin inkişafına dair təşkil edilən konfranslarda, vebinarlada və digər tədbirlərdə birgə iştirak, peşənin inkişafına dair birgə nəşrlərin həyata keçirilməsi və s. sahələrdə əməkdaşlığın qurulması istiqamətində ikitərəfli müzakirələr aparılmışdır.





* * *

***Auditorlar Palatasında İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası ilə əməkdaşlığın gücləndirilməsi məqsədilə işgüzar görüş keçirilmişdir.***

Azərbaycan Respublikası Auditorlar Palatası və İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının (ACCA) nümayəndə heyətləri arasında 2025-ci ilin mayın 29-da əməkdaşlığın inkişafına dair görüş keçirilmişdir.

Görüşün əsas məqsədi 2024-ci ilin sentyabr ayında imzalanmış yenilənmiş Anlaşma Memorandumunun icrası çərçivəsində görülmüş işlərin müzakirəsi, dayanıqlı inkişafa dair hesabatlılığın təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, Azərbaycanın Auditorlar Palatasının ACCA-nın qeydiyyatdan keçmiş təlim tərəfdaşı (Registered Learning Partner) kimi tanınması və digər məsələlərin müzakirəsindən ibarət olmuşdur.

Görüşü açan Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədov qonaqları Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun adından salamlayaraq Palata tərəfindən son dövrlərdə peşənin təşkili və tənzimlənməsinə dair həyata keçirilmiş işlər, beynəlxalq təcrüənin öyrənilməsi və tətbiqi, o cümlədən 23 və 24 may tarixlərində keçirilmiş "ƏL/TMM sahəsində nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda

beynəlxalq elmi-praktik konfrans, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin son versiyasının Azərbaycan dilinə tərcüməsi və nəşri, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu ilə birgə nəşr etdirilmiş “İstixana qazlarının uçotunun əsasları-dayanıqlı inkişafla bağlı MHBS standatları əsasında” adlı təlimatın nəşri barədə məlumat verib və Palatanın 2024-cü il üzrə fəaliyyətinin yekunlarında dair nəşr etdirilmiş hesabatını qonaqlara təqdim etmişdir.

Görüşün sonunda nümayəndə heyətləri gələcək əməkdaşlıq istiqamətləri üzrə geniş fikir mübadiləsi aparıb və prosesin davamlı inkişafı üçün qarşılıqlı fəaliyyət planlarının hazırlanmasına dair razılığa gəlmişlər.









* * *

***Auditorlar Palatasının nümayəndə heyəti Litva Respublikasının Vilnüs şəhərində beynəlxalq konfransda iştirak etmişdir.***

Auditorlar Palatasının sədri professor Vahid Novruzovun rəhbərlik etdiyi nümayəndə heyəti 2025-ci il sentyabrın 11-də Litva Auditorlar Palatası tərəfindən Litva Respublikasının paytaxtı Vilnüs şəhərində keçirilmiş qurumun fəaliyyətə başlamasının 25 illik yubileyinə və Litvada müstəqil auditor peşəsinin bərqərar olmasının 30 illik yubileyinə həsr edilmiş "30 illik etimad: Litva Auditorlar Palatasının keçdiyi yol və gələcək dövrün çağırışları" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

Tədbirdə Litva Respublikası prezidentinin nümayəndəsi, Maliyyə naziri, Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin İstintaq Xidmətinin və digər müvafiq nazirliklərin rəhbərləri, Hesablama Palatasının sədri, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasibləri Təşkilatının Baş icraçı direktorları, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının (ACCA) Şimali və Şərqi Avropa üzrə regional rəhbəri, Litva Auditorlar Palatasının prezidenti və sabiq prezidentləri, habelə Estoniya, İrlandiya və Latviyanın audit və mühasibatlıq qurumlarının nümayəndələri tərəfindən "Litva Auditorlar Palatası tərəfindən ötən illər ərzində auditin təşkili və tənzimlənməsi", "30 illik etimad: transformasiyada naviqasiya, gələcək baxışlar", "Maliyyə hesabatlılığının şəffaflığının və keyfiyyətinin təmin edilməsində müstəqil auditin rolu", "Avropa İttifaqının korporativ sektor üçün yaşıl və rəqəmsal siyasəti"; "Maliyyə və dayanıqlılıq hesabatına dair islahatların yaratdığı imkanlar", "Dövlət və korporativ sektor üzrə dayanıqlılıq hesabatı"; "Süni intellekt – mühasibatlıq və audit üçün risklər və imkanlar", "Cinayət gəlirlərinin leqallaşdırılmasına

qarşı mübarizədə auditorların rolu", "Auditor fəaliyyəti üzərində dövlət nəzarəti" mövzularında məruzələr dinlənilmişdir.

Beynəlxalq konfransda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov "Azərbaycanda auditə gələcək baxış" mövzusunda məruzə ilə çıxış edərək Azərbaycanda audit qanunvericiliyinin əsasları, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində həyata keçirilən uğurlu islahatlar, dayanıqlı inkişafa dair hesabatlılığın təmin edilməsində auditin üzərinə düşən vəzifələr, gənclər arasında auditor peşəsinə marağın artırılması, onların bu peşəyə daha geniş cəlb edilməsi məqsədilə Auditorlar Palatası tərəfindən həyata keçirilən tədbirlərdən bəhs etmişdir.






* * *

***Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliyində beynəlxalq konfransda iştirak etmişdir.***

Auditorlar Palatasının sədr müavini Fəxrəddin İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (İCAP) tərəfindən Dubay şəhərində keçirilmiş "Kvant sıçrayışı: çeviklik və rəqabət üstünlüyü" mövzusunda beynəlxalq konfransda iştirak etmişlər.

Tədbirdə BƏƏ-nin Xarici Ticarət naziri, Pakistanın Maliyyə nazirinin müşaviri, İCAP-ın Prezidenti, Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) prezidenti, Səudiyyə Ərəbistanın Sertifikatlı və Peşəkar Mühasiblər Təşkilatının (SOCPA) baş direktoru, SAFA Holdinqin prezidenti, İCAP-ın Şura üzvləri, “Mashreq Gold & Distribution” şirkətinin rəhbəri və baş icraçı direktoru, Yaxın Şərq üzrə PwC-nin Əminlik üzrə partnyorları, Ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) üzrə Əminlik rəhbəri və Davamlılıq Hesabatı və Əminlik üzrə direktoru, Rəqəmsal Etibar üzrə direktoru, Baş Kapital Bazarları üzrə Direktor vəzifəsini icra edən (ADX), Körfəz Əməkdaşlıq Şurasının (GCC) Direktorlar İnstitutunun üzvü, BƏƏ-nin İdarəetmə Komitəsinin sədri (İCAP) və Dubay Maliyyə Xidmətləri Təşkilatının Audit və İnfrastruktur direktoru nümayəndələri tərəfindən “BƏƏ və Körfəz Ərəbistanı Əməkdaşlıq Şurasının (GCC) Transformativ Böyüməyə Yol Xəritəsi”, “Yenidənqurma Maliyyəsi: İnklüziv, Ölçülən və Regional Səviyyədə Ağıllı”, “Pakistan və BƏƏ arasında investisiya perspektivləri və diplomatik münasibətlər”, “Yaxın Şərqdə Gələcəyə Hazır Maliyyə Ekosisteminin

Qurulması”; “Maliyyə Liderliyinin Gələcəyinin Formalaşdırılması: IFAC-ın Maliyyə Direktorlarının Təkmilləşdirilməsi Görünüşü”, “Növbəti Nəsil Maliyyə: Davamlı, Ağıllı və Bacarıqlı”; “Tənzimləmə. Hesabat təqdim etmə. Rəhbərlik təyin etmə - Uyğunluqdan etibara”, “Regional Sinergiyanı Təşviq Etmək”, “Sərhədsiz Mühasibatlıq - ICAP-ın Qlobal Əhəmiyyətlilik üçün Təhsilini Yenidən Təsəvvür Etmək”, “Sərhədləri Kənarda Bankçılıq: Sürətlə İnkişaf Edən Maliyyə Ekosistemində Çevikliyin Təşviqi”, “Gələcəyin Maliyyələşdirilməsi: Maliyyə Direktorları BƏƏ-nin ESG Ekosistemində Yaşıl Kapitalın Açılması” mövzularında məruzə və müzakirələr dinlənilmişdir.

Palata təmsilçiləri konfrans çərçivəsində haqsız rəqabətə qarşı mübarizə istiqamətində Azərbaycan təcrübəsini bölüşüb və iştirakçılarla müzakirələr aparmışlar.





* * *

***Auditorlar Palatasında dayanıqlı inkişafa dair bacarıqların artırılması üzrə beynəlxalq vebinar keçirilmişdir.***

Auditorlar Palatası ilə İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) arasında mövcud olan Anlaşma Memorandumuna uyğun olaraq, 2025-ci il oktyabrın 28-də auditorların dayanıqlı inkişafa dair hesabatlılıq sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə “Maliyyə mütəxəssislərinin dayanıqlı inkişafa dair hesabatlılıq üzrə bacarıqlara yiyələnməsi vasitəsilə imkanlarının genişləndirilməsi” mövzusunda birgə maarifləndirici vebinar təşkil edilmişdir.

Tədbirdə Auditorlar Palatasının əməkdaşları, sərbəst auditorlar, auditor təşkilatlarının rəhbərləri, onların assistentləri və mütəxəssisləri iştirak etmişlər.

Vebinarın əsas məqsədi maliyyə, audit və mühasibat uçotu sahəsində çalışan peşəkarların dayanıqlı inkişafa dair bilik və bacarıqlarını inkişaf etdirmək, eləcə də Avropa Davamlılıq Hesabatlılığı Standartlarının (ESRS), Beynəlxalq Maliyyə Hesabatı Standartları Şurasının (IFRS/ISSB) qəbul etdiyi S1 “Dayanıqlı inkişafla bağlı məlumatların açıqlanmasına dair ümumi tələblər” və S2 “İqlimlə bağlı məlumatların açıqlanması” standartlarının, həmçinin “Beynəlxalq dayanıqlılıq hesabatlarının təminatı üzrə ISSA 5000”-in tətbiqi kontekstində mühasiblərin və auditorların dəyişən rolunu müzakirə etməkdən ibarət olmuşdur.

Vebinar çərçivəsində ACCA-nın Avrasiya regionu üzrə ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Gaukhar Aşirbekova tərəfindən təqdimat dinlənilmişdir. O, dayanıqlı inkişafa dair bilik və bacarıqların müasir maliyyə mütəxəssisləri üçün zəruri olduğunu vurğulayaraq qeyd etmişdir ki, mühasibat və audit peşəsinin əhatə dairəsi getdikcə genişlənir və dayanıqlı biznes modellərinin qurulması, hesabatlılıq və təminat üzrə bilikləri də özündə birləşdirməlidir.

Tədbir iştirakçıları dayanıqlı inkişafla bağlı hesabatlılığın milli səviyyədə tətbiqi, beynəlxalq standartlara uyğun məlumatların açıqlanması və bu prosesdə auditorların rolu barədə fikir mübadiləsi aparmışlar.






* * *

***Auditorlar Palatasında beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində işgüzar görüş keçirilmişdir.***

Auditorlar Palatası, Türkiyənin İctimai Nəzarət, Mühasibat və Audit Standartları Təşkilatı (KGK) və Qazaxıstan Respublikası Auditorlar Palatasının nümayəndə heyətləri arasında 2025-ci il noyabrın 14-də işgüzar görüş keçirilmişdir.

Görüşün məqsədi Auditorlar Palatası və KGK arasında audit və mühasibatlıq sahəsində institusional tərəfdaşlıq mexanizmlərinin yaradılması, iki qardaş ölkənin tənzimləyici qurumları arasında auditin keyfiyyətinə nəzarət, ƏL/TM-ə və haqsız rəqabətə qarşı mübarizə, auditorlarının sertifikasiyası sahələrində birgə əməkdaşlıq perspektivlərinin, habelə türkdilli dövlətlərin audit və mühasibatlıq qurumlarının vahid birliyinin yaradılması məsələlərinin müzakirəsindən ibarət olmuşdur.

Görüş zamanı Türkdilli Dövlətlərin Audit və Mühasibatlıq Qurumlarının Vahid Birliyinin təsis edilməsi məsələsi diqqət mərkəzində olmuşdur.

Tədbirdə Qazaxıstanın Auditorlar Palatasının icraçı direktoru Akan Arıstan çıxış edərək Türkdilli Dövlətlərin Audit və Mühasibatlıq Qurumları Birliyinin yaradılması təşəbbüsünə görə Azərbaycanın Auditorlar Palatasına öz dərin minnətdarlığını ifadə etmiş və təmsil etdiyi qurumun rəhbərliyi adından hazırlanmış rəsmi müraciəti səsləndirmişdir.

Müraciətdə deyilir:

- « Hörmətli həmkarlar, qardaş təşkilatların dəyərli nümayəndələri!

Məlum olduğu kimi, dövlətlərimiz və xalqlarımız hər keçən gün Türk birliyinin güclǝndirilmǝsi mǝsǝlǝlǝrinǝ — hǝm Türk Dövlǝtlǝri Tǝşkilatı çǝrçivǝsindǝ, hǝm dǝ peşəkar icmalar arasında əməkdaşlığın dərinləşdirilməsi vasitəsilə daha çox diqqət ayırır.

Bu gün qarşımızda gələcək nəsillərə hesablanmış mühüm və strateji perspektivlər açılır. Bu perspektivlər iqtisadiyyatı, mədəniyyəti, təhsili, standartlaşdırmanı və əməkdaşlığın digər vacib sahələrini əhatə edir.

Bu kontekstdə biz Azərbaycan Auditorlar Palatasının təqdim etdiyi Türk Dünyası Ölkələrinin Auditorlar Şurasının yaradılması təşəbbüsünü səmimiyyətlə dəstəkləyirik. Belə bir Şuranın peşəkar əlaqələrin gücləndirilməsi, təcrübə mübadiləsi, yanaşmaların harmonizasiyası və ortaq layihələrin inkişafı üçün səmərəli platforma olacağına inanırıq.

Bu təşəbbüsün ən qısa zamanda — elə bu gündən etibarən — həyata keçirilməsini vacib hesab edirik.

Bundan əlavə, ümumi tariximizi və mədəni irsimizi əks etdirən simvolik addım olaraq ox qabları — qolçanlar hazırlamışıq. Qolçan silah deyil; əksinə, bir məqsəd uğrunda birləşmiş oxların birliyini ifadə edən bir rəmzdir. Hər ox bir iştirakçı dövləti təmsil edir. Hazırda beş ox hazırlanmışdır — Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan.

Bu rəmz bir fikri çatdırır: hər bir ölkə təkbaşına güclüdür, lakin əsl yenilməzlik qardaş xalqlarla birlikdə mümkün olur.

Üç təşkilat arasında yüksək səviyyəli uzlaşmanı nəzərə alaraq, digər iki ölkənin rəsmi cavabını gözləmədən, əldə olunmuş qarşılıqlı anlaşma əsasında Türk Dünyası Auditorlar Şurasının yaradılması barədə razılığa gəldiyimizi elan etməyi təklif edirik.

İlk addım olaraq Şuranın konsepsiyasını, məqsədlərini, vəzifələrini, strukturunu və əməkdaşlıq mexanizmlərini hazırlayacaq işçi qrupunun yaradılmasını təklif edirik.

Hörmətli həmkarlar, biz bu təşəbbüsü sadəcə layihə kimi deyil, ortaq Türk evimizin möhkəmləndirilməsinə töhfə kimi qiymətləndiririk. Gələcək Şura peşəkar birliyin, qarşılıqlı anlaşmanın və qardaşlıq əməkdaşlığının yeni rəmzinə çevriləcəkdir.

Sözlərimi ortaq ruhumuzu ifadə edən bu fikirlə tamamlayıram:

«Biz türklər bir-birindən ayrılmaz oxlar kimiyik; hamımız bir yəhərdə — bu bizim tariximizi əks etdirir və bizi birgə gələcəyə aparır».





* * *

***Auditorlar Palatasının nümayəndə heyəti "Qlobal Mühitdə Peşəkar Özünüidarəetmə: Çağırışlar və İmkanlar" mövzusunda Kiyevdə təşkil olunmuş onlayn beynəlxalq konfransda iştirak etmişdir.***

2025-ci il noyabrın 19-da Ukrayna Auditorlar Palatasının təşkilatçılığı ilə "Qlobal Mühitdə Peşəkar Özünüidarəetmə: Çağırışlar və İmkanlar" mövzusunda beynəlxalq onlayn konfrans keçirilmişdir.

Tədbirdə beynəlxalq və regional peşəkar tənzimləyici qurumlar olan Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC), Avropa Mühasibatlıq Qurumunun (Accountancy Europe), Böyük Britaniyanın Maliyyə Mühasibləri İnstitutunun (IFA) nümayəndələri ilə yanaşı Azərbaycanın Auditorlar Palatası, Rumıniya Maliyyə Auditorları Palatası, Polşa Auditorlar Palatası, Macarıstan Auditorlar Palatası, Dünya Bankının Maliyyə Hesabatlılığı üzrə İslahatlar Mərkəzi (CFRR) və dünyanın digər aparıcı audit və mühasibatlıq təşkilatlarının 450-ə yaxın nümayəndələri iştirak etmişdir.

Beynəlxalq konfransın əsas məqsədi qlobal iqtisadi və institusional dəyişikliklər fonunda auditor peşəsinin qarşılaşdığı yeni çağırışların kompleks şəkildə təhlili, peşəkar özünüidarəetmə modelinin müasir tələblərə uyğun təkmilləşdirilməsi, dövlət nəzarəti ilə peşəkar müstəqil nəzarət arasında optimal tarazlığın yaradılması, həmçinin beynəlxalq təcrübə və normativ çərçivələrin milli sistemlərdə tətbiqi imkanlarının müzakirəsindən ibarət olmuşdur. Tədbir, eyni zamanda, qlobal səviyyədə artan tənzimləmə tendensiyaları, ESG və davamlılıq hesabatlılığının gücləndirilməsi, rəqəmsallaşma və süni intellektin audit proseslərinə təsiri kimi məsələlərin auditor təşkilatlarının idarəetmə mexanizmlərinə necə inteqrasiya olunmalı olduğunu gündəmə gətirmişdir.

Tədbir zamanı konfransın proqramına uyğun olaraq "Auditorların peşəkar özünüidarəetməsinin beynəlxalq modelləri: dövlət nəzarəti və peşəkar müstəqillik arasında balans", "IFAC-ın üzvlük öhdəlikləri və auditin keyfiyyətinin yüksəldilməsində rolu", "Polşada audit sahəsində islahatlar və gələcək perspektivlər", "Rumıniya audit peşəsinin strukturu və inkişafı", "Macarıstanda audit nəzarəti və peşəkar birlik arasında səlahiyyət bölgüsü", "Ukraynada hüquqi islahatlar, peşəkar özünüidarəetmənin formalaşdırılması və yeni reallıqda inkişaf istiqamətləri" mövzularında geniş fikir mübadiləsi aparılmışdır.




* * *

***Auditorlar Palatasının nümayəndə heyəti Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak etmişdir.***

Özbəkistan Auditorlar Palatasının təşkilatçılığı ilə 2025-ci ilin 9 dekabr tarixində Özbəkistanın paytaxtı Daşkənd şəhərində qurumun fəaliyyətə başlamasının 25 illik yubileyinə həsr edilmiş tədbir və "Rəqəmsal Dövrdə Mühasibat Uçotu və Audit: Davamlılıq, İnnovasiya və Etimad" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Həmin tədbirdə Auditorlar Palatasının nümayəndə heyəti iştirak etmişdir.

Tədbirdə Avropa, Asiya və Orta Asiya dövlətlərinin audit və mühasibat uçotu sahəsində nəzarət və tənzimləyici orqanları, bir çox ölkələrin audit və mühasibatlıq qurumlarının nümayəndələri tərəfindən “Rəqamsal dövrdə maliyyədə şəffaflıq və auditin keyfiyyəti: Yeni standartlar”, “Auditdə süni intellektin tətbiqi”, “Dövlət müəssisələrində davamlılıq hesabatlarının dərci:Müasir təcrübələr, problemlər və təkmilləşdirmə istiqamətləri”, “Rəqəmsal dövrdə Çin audit təcrübələri və tədqiqatları”, “İnam, Zaman və Biz: Rəqəmsal dövrdə psixologiya auditorlara dəqiq və etibarlı olmağa necə kömək edir?”, “Süni intellekt dövründə Qazaxıstanda audit və mühasibatlıq sektorunun hazırkı vəziyyəti və perspektivləri”, “Rəqəmsal Audit: Etimad”, “Müasir dövrün tələbləri nəzərə alınmaqla hesabatların hazırlanması və auditi sahəsində kadrların çətinlikləri” və müxtəlif mövzularda məruzələr dinlənilmiş və tədbir çərçivəsində müxtəlif nominasiyalar üzrə təltiflər təqdim edilmişdir.

Konfransda eyni zamanda süni intellekt, avtomatlaşdırma və məlumat analitikası vasitəsilə keyfiyyətin və səmərəliliyin artırılması, rəqəmsal platformalarda maliyyə məlumatlarının mübadiləsinin standartlaşdırılması, şəffaf hesabatlılıq vasitəsilə investorların inamının gücləndirilməsi, rəqəmsallaşdırma vasitəsilə korrupsiya risklərinin azaldılması, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (IFRS), Beynəlxalq Audit Standartları (ISA) və digər qlobal tələblərin milli təcrübəyə tətbiqi, audit prosesində informasiya təhlükəsizliyi protokollarının gücləndirilməsi, saxtakarlığın yeni formalarına qarşı texnoloji yanaşmalar,

rəqəmsal dövr üçün yeni bacarıqlar, davamlı peşəkar inkişaf sisteminin modernləşdirilməsi, qeyri-maliyyə məlumatlarının etibarlılığının qiymətləndirilməsi, İT nəzarətinin, məsafədən monitorinqin və kənar keyfiyyət qiymətləndirməsinin gücləndirilməsi, müştərilər və ictimaiyyət üçün audit nəticələrinin şəffaflığı, elektron mühasibat sistemlərinin geniş tətbiqi, büdcə təşkilatları və dövlət maliyyəsinin idarə edilməsində hesabatlılığın və səmərəliliyin artırılması məsələləri müzakirə olunmuşdur.

Tədbir çərçivəsində Rusiya, Çin, Moldova, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Türkmənistan və digər ölkələrin audit və mühasibatlıq qurumlarının və Azərbaycanın Auditorlar Palatasının nümayəndə heyətləri arasında peşənin inkişafına dair təcrübə mübadiləsi aparılmış və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.







* * *

***Auditorlar Palatasının nümayəndələri Albaniyada keçirilən dördüncü Regional Audit Keyfiyyətinin Təminatı Forumunda iştirak etmişlər.***

Auditorlar Palatasının nümayəndə heyəti 2025-ci ilin 9-10 dekabr tarixlərində Albaniyanın Tirana şəhərində keçirilən "Audit Nəzarətində İslahatların İrəlilədilməsi" mövzusunda "İctimai Nəzarət Orqanları üçün dördüncü Regional Audit Keyfiyyətinin Təminatı Forumu (POB Forumu)"nda Azərbaycanı təmsil etmişlər.

Forum Dünya Bankının Vyana şəhərində yerləşən Maliyyə və Dayanıqlı Hesabatlılıq Reformu Mərkəzinin (CFRR) iki aparıcı proqramı – KOB-lar üçün REPARIS və EAASURE –

proqramları çərçivəsində təşkil olunmuşdur. Tədbirdə Avropa İttifaqı ölkələri, Qərbi Balkan regionu və tərəfdaş ölkələrin audit nəzarəti orqanları, beynəlxalq ekspertlər və tənzimləyici qurumlar iştirak etmişlər.

İki gün davam edən forum çərçivəsində auditor nəzarətində institusional islahatların gücləndirilməsi, auditin keyfiyyətinin yüksəldilməsi, peşəkar etimadın artırılması və dayanıqlı hesabatlılıq tələblərinə keçid kimi aktual məsələlər müzakirə olunmuşdur.






## IX. AUDİTORLAR PALATASININ ŞURASI YANINDA KOMİTƏLƏRİN VƏ KOMİSSIYANIN, AUDİTORLAR PALATASININ İCTİMAİ NƏZARƏT KOMİTƏSİNİN, QADINLAR ŞURASININ VƏ VETERANLAR ŞURASININ FƏALİYYƏTİ

2025-ci ildə Auditorlar Palatasının Şurası yanında aşağıda qeyd olunan komitələr və komissiya, Auditorlar Palatasının İctimai nəzarət komitəsi, Qadınlar Şurası və Veteranlar Şurası fəaliyyət göstərmişdir:

I. Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə;

II. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə;

III. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə;

IV. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

V. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə ;

VI. Auditin hüquqi təminatı üzrə komitə;

VII. Beynəlxalq audit standartları üzrə komitə;

VIII. Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitə;

IX. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitə;

X. Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası.

Auditorlar Palatasının Şurası yanında komitələr və komissiya, Auditorlar Palatasının İctimai nəzarət komitəsi, Qadinlar Şurası və Veteranlar Şurası öz fəaliyyətlərini Palatanın struktur bölmələri ilə bərabər iş planına müvafiq formada qurmuş və səlahiyyətləri çərçivəsində öhdəliklərini yerinə yetirmişlər. Komitələrin və komissiyanın, İctimai nəzarət komitəsinin, Qadinlar Şurasının və Veteranlar Şurasının fəaliyyətləri hesabatın müvafiq bölmələrində əksini tapmışdır.

## X. AUDİTORLAR PALATASI ŞURASININ FƏALİYYƏTİ

2025-ci il ərzində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 12 iclası (fəaliyyətə başladığı dövrdən hesabat ilinin sonunadək üç yüz səksən dörd iclas) keçirilmişdir. Bunun üçün əvvəlcədən məruzəçilər tərəfindən hazırlanmış müvafiq qərar layihələri və əlavələr toplanmış, onlara dair rəyçilər tərəfindən verilmiş rəylər alınmış və Şura iclasları üçün hazırlanmışdır. Şura iclaslarında əsasən auditor fəaliyyətini tənzimləyən normativ hüquqi sənədlərin, təlimatların, metodik göstərişlərin, standartların və qaydaların müzakirəsi ilə əlaqədar qərarlar qəbul edilmişdir.

Auditorlar Palatası Şurasının 2025-ci il 24 yanvar tarixində keçirilən üç yüz yetmiş üçüncü iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) tətbiqi üzrə Təlimat” barədə;

2. “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamənin təkmilləşdirilməsi barədə;

3. Auditorlar Palatasının Şurası yanında Auditin hüquqi təminatı üzrə komitənin sədri, sərbəst auditor Ənvər Aslanov tərəfindən hazırlanmış “Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı (tarixi faktlar)” adlı material barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 28 fevral tarixində keçirilən üç yüz yetmiş dördüncü iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə;

2. 2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair hazırlanmış icmal-təhlil barədə;

3. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın, Veteranlar Şurasının və Qadınlar Şurasının 2024-cü il üzrə hesabatları və 2025-ci il üzrə iş planlarının təsdiq edilməsi barədə;

4. İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in layihəsi barədə;

5. Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması üçün xüsusi bir mexanizmin yaradılması və tətbiq edilməsi;

6. Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin işlənib hazırlanması;

7. Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sisteminin yaradılması və tətbiqi;

8. BAS 700 (yenidən işlənmiş) "Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartına dair şərhin hazırlanması barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 23 aprel tarixində keçirilən üç yüz yetmiş beşinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabatı barədə;

2. Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2024-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı" barədə;

3. "2025-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramı" barədə;

4. 600 saylı (düzəliş edilmiş) "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi (o cümlədən bölmə auditorlarının işi)" Beynəlxalq Audit Standartına dair hazırlanması şərh barədə;

5. Auditorlar Palatasında "Auditorun səsi" mövzusunda 2025-ci il 14 mart tarixində keçirilən onlayn tədbirdə verilən təkliflərin reallaşdırılması barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 02 may tarixində keçirilən üç yüz yetmiş altıncı iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Tender və kotirovkalarda Auditorlar Palatasının üzvləri tərəfindən yol verilmiş neqativ halların aradan qaldırılmasına dair Müraciət barədə;

2. İctimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə müraciət məktubunun layihəsinin hazırlanması və göndərilməsi barədə;

3. “Auditor adı almaq üçün Auditorlar Palatasının İmtahan Komissiyası haqqında” Əsasnamənin təkmilləşdirilməsi barədə;

4. “Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları”nın təkmilləşdirilməsi barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 13 iyun tarixində keçirilən üç yüz yetmiş yeddinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Tapdıq oğlu Novruzovun anadan olmasının 75 illik yubileyi münasibətilə hazırlanmış Biblioqrafiya barədə;

2. “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri” üzrə Beynəlxalq Audit Standartına dair şərhin hazırlanması barədə;

3. Auditorlar tərəfindən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə əməl olunması vəziyyəti barədə aparılmış sorğu barədə;

4. Davamlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində mühasiblərin və auditorların öhdəliklərinə və məsuliyyətlərinə dair hüquqi aktların layihələri üzrə təkliflər;

5. 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin hazırlanması barədə;

6. Keyfiyyətə kənar nəzarət sahəsində yol verilən nöqsanların profilaktikası və mövcud risklərin aşkar edilməsi məqsədilə təhlilin aparılması və təkliflərin verilməsi barədə;

7. Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 13 avqust tarixində keçirilən üç yüz yetmiş səkkizinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının struktur bölmələrinin 2025-ci ilin I yarımilliyi üzrə fəaliyyətinin yekununa dair hesabat barədə

2. Haqsız rəqabətin vəziyyətinə dair hesabat barədə

3. “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübə və təqdim olunmuş təkliflər barədə”

4. “Gənclərin audit fəaliyyətinə geniş cəlb olunmasının həlli istiqamətlərinin tətbiqinə dair sorğunun keçirilməsi barədə” Plan-proqramın nəticələrinə dair hesabat

5. “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran və yalnış məlumatların müəyyən edilməsi üzrə meyarlar barədə

6. Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sistemi

7. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti”

mövzusunda 2025-ci il 23-24 may tarixli beynəlxalq elmi-praktik konfransın materiallarının nəşr etdirilməsi barədə

8. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2025-ci ilin I yarımili ərzində Auditorlar Palatasına üzvlük haqqının ödənilməsi vəziyyəti barədə

9. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl edilmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

Auditorlar Palatası Şurasının 2025-ci il 17 sentyabr tarixində keçirilən üç yüz yetmiş doqquzuncu iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə;

2. Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurları barədə;

3. Azərbaycan Respublikası Auditorlar Palatasında daxili auditin aparılması üzrə Təlimat barədə;

4. Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və logistika kafedrasının müdiri, əməkdar müəllim Məhəmməd Ələkbər oğlu Əliyevin Azərbaycan Respublikası Auditorlar Palatasına "Fəxri üzv" qəbul edilməsi barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 09 oktyabr tarixində keçirilən üç yüz səksəninci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində mühasiblərin və auditorların öhdəlikləri və məsuliyyətləri barədə;

2. 2025-ci ilin I yarımilliyi üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilərkən ƏL/TMM qanunvericiliyinə riayət olunmasının vəziyyətinə dair icmal-təhlil barədə;

3. Auditorlar arasında etik qaydalara əməl edilməsinə dair monitorinq sisteminin təsdiq edilməsi barədə;

4. "Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemlərinə dair" keçirilmiş sorğu ilə bağlı Hesabat barədə;

5. Audit Komitəsinin nümunəvi Əsasnaməsi barədə;

6. "Auditor xidmətinin sifarişçiləri, istifadəçiləri və ictimaiyyət tərəfindən auditə etimadın dəyərləndirilməsi barədə" keçirilmiş sorğunun nəticələri barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 03 noyabr tarixində keçirilən üç yüz səksən birinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. “Audit və hesabatlılıq: cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə” adlı kitabın nəşri barədə;

2. Keyfiyyətə kənar nəzarət sahəsində yol verilən nöqsanların profilaktikası və mövcud risklərin aşkar edilməsi məqsədilə təhlilin aparılması və təkliflərin verilməsi barədə;

3. “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin reallaşdırılması ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə;

4. Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti gostərən şəxslərin aşkar edilməsi üzrə aparılmış monitorinq və onun nəticəsinə dair təkliflər barədə;

5. 2025-ci ilin I yarımilliyi ərzində bağlanmış, lakin ləğv olunmuş müqavilələrə dair araşdırmanın nəticələri barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 21 noyabr tarixində keçirilən üç yüz səksən ikinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planı barədə;

2. Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinə dair monitorinq sistemi barədə;

3. Auditorlar Palatasının maliyyə hesabatlarının auditinin aparılması üçün auditorun seçilməsinə dair;

4. Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 15 dekabr tarixində keçirilən üç yüz səksən üçüncü iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planı barədə;

2. “Səlahiyyətli dövlət orqanlarinin sifarişi ilə aparilan yoxlamalara dair Qayda” barədə;

3. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci ildə yerinə yetirilməsinə dair hesabat barədə;

4. Auditorlar Palatası tərəfindən ƏL/TMM sahəsində aparılacaq monitorinqlərə dair 2026-cı il üzrə plan-qrafikin təsdiq edilməsi barədə;

5. Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin icrasının təmin edilməsi; Beynəlxalq təşkilatlar və peşəkar qurumlar tərəfindən təqdim edilmiş materialların öyrənilməsi, müzakirəsi və tətbiqi barədə;

6. 2025-ci il ərzində auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin və seminarların təşkili barədə.

Auditorlar Palatası Şurasının 2025-ci il 23 dekabr tarixində keçirilən üç yüz səksən dördüncü iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2026-cı il üzrə iş planının təsdiq edilməsi barədə;

2. “Əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində auditor fəaliyyəti üzrə risklərin qiymətləndirilməsinə dair Metodologiya” barədə;

3. 2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış barədə;

4. “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik”lərin təsdiq edilməsi barədə;

5. Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 2025-ci il üzrə Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri barədə;

6. 2026-cı ilin “Auditorların peşə etikası ili” (“Auditdə peşə etikası ili”) elan edilməsi barədə.






## XI. AUDİTORLAR PALATASININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ

Azərbaycan Respublikası Auditorlar Palatası təsərrüfat hesablı müstəqil maliyyə orqanı olmaqla, Əsasnaməsinə uyğun fəaliyyət göstərərək, aşağıdakı maliyyə mənbələrinə malikdir:

- auditor təşkilatları və sərbəst auditorlar tərəfindən ödənilən üzvlük haqqı;

- müxbir üzvlərdən üzvlük haqqı;

- auditor fəaliyyəti ilə məşğul olmaq hüququ verən lisenziya almaq üçün keçirilən imtahanlarda iştirak etmək üçün ödəniş haqqı;

- kurslar üçün ödəniş haqqı.

Göstərilən maliyyə mənbələrinə uyğun olaraq, Auditorlar Palatasının gəliri 2025-ci ildə aşağıdakı kimi olmuşdur:

| Gəlir mənbəyi | Məbləğ (manatla) |
|---|---|
| Üzvlük haqqları | 1 462 373,45 |
| İxtisasartırma və imtahan gəlirləri | 47 805,00 |
| Qrant və ianələr | 27 300,00 |
| **CƏMİ:** | **1 537 478,45** |

Beləliklə, 2024-cü il ilə (1 423 885,56 manat) müqayisədə, 2025-ci ildə 1 537 478,45 manat gəlir əldə edilmişdir ki, bu da 7,39 % artım deməkdir.

Auditorlar Palatası 2025-ci il ərzində Respublika büdcəsinə 1 489.00 manat, Dövlət Sosial Müdafiə Fonduna 123 814,69 manat vəsait ödənilmişdir. 2025-ci il ərzində Palatada əməkdaşların orta siyahı sayı 65 nəfər olmuş və onlara 760 706,25 manat məbləğində əmək haqqı və mükafat ödənilmişdir.

Beləliklə, 2025-ci ildə 1 293 441,29 manat xərc çəkilərək, Palata maliyyə-təsərrüfat fəaliyyətini 244 452,29 manat mənfəətlə başa vurmuşdur.

2024-ci il ilə müqayisədə 2025-ci il maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri aşağıdakı cədvəldə və diaqramda əksini tapmışdır:

| İllər | Gəlir (manatla) | Xərc (manatla) | Mənfəət/Zərər (manatla) |
|---|---|---|---|
| **2024** | **1 423 885,56** | **1 264 001,99** | **158 687,20** |
| **2025** | **1 537 478,45** | **1 293 441,29** | **244 452,29** |



# MÜSTƏQİL AUDİTORUN HESABATI

**Azərbaycan Respublikası Auditorlar Palatasına**

**Rəy**

Azərbaycan Respublikası Auditorlar Palatasının (Palata) 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Palatanın 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Audit Beynəlxalq audit standartlarına (BAS) uyğun aparılmışdır. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şürasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Palatadan asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Palatanı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Palatanın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Palatanın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffavlıq nümayiş etdiririk.

"BKR Konsaltinq" MMC

Auditor E. Əliyev

Bakı şəhəri, Azərbaycan Respublikası
10.03.2026

## XII. İnformasiya-təbliğat və nəşriyyat fəaliyyəti

**Auditorlar Palatası tərəfindən 2025-ci il ərzində aşağıdakı kitablar nəşr etdirilmişdir:**

### 1. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi




### 2. Maliyyə Nəzarətinin (Auditin) Formalaşması və İnkişafı – tarixi faktlar



**3. HESABATLILIQ VƏ AUDİT: Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə**




2025-ci il ərzində Auditorlar Palatası tərəfindən informasiya açıqlığının təmin edilməsi, ictimaiyyətlə kommunikasiya imkanlarının genişləndirilməsi və audit sahəsində maarifləndirmə fəaliyyətinin gücləndirilməsi məqsədilə müxtəlif kütləvi informasiya vasitələrində dərc olunmuş məqalə və müsahibələr Palatanın rəsmi internet səhifəsində yerləşdirilmişdir:

❖ **24.01.2025 –** Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun “yap.org.az”-da və “AZƏRTAC”-da “DAVOS 2025 - Milli maraqlarımızın müdafiəsində növbəti uğur” başlıqlı məqaləsi;

❖ **22.04.2025 –** Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun “report.az” da “Keyfiyyətsiz audit aparanlar akkreditasiya sənədini itirə bilər” başlıqlı müsahibəsi;

❖ **06.05.2025 –** Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun “Azərbaycan” qəzetində “Konstitusiyamızın banisi” başlıqlı məqaləsi;

❖ **06.05.2025 –** Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun “Azərbaycan” qəzetində “Konstitusiyamızın banisi” başlıqlı məqaləsi;

❖ **15-21.05.2025 –** Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədovun və Aparatın rəhbəri Qəşəm Bayramovun “İqtisadiyyat” qəzetində “Azərbaycan auditi - 2024: Uğurlar, perspektivlər və problemlər” başlıqlı məqalələri;

❖ **12-18.06.2025 –** Auditorlar Palatasının Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Zaur Almazovun “İqtisadiyyat” qəzetində “Azərbaycanda daxili audit: inkişaf tarixi və mövcud durum” başlıqlı məqaləsi;

❖ **19-25.07.2025 –** Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Barat Orucovun və həmin idarənin

rəis müavini Maral Osmanovanın "İqtisadiyyat" qəzetində "Auditin innovativ yanaşmaları və keyfiyyətin idarə edilməsində yeni trendlər" başlıqlı məqalələri;

- **25.06-09.07.2025 –** Auditorlar Palatasının Kadr hazırlığı idarəsinin rəisi idarəsinin rəisi Elmira Hacıyevanın "İqtisadiyyat" qəzetində "Auditor kadrlarının hazırlanmasında aktual problemlər" başlıqlı məqaləsi;
- **10-16.07.2025 –** Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərlinin "İqtisadiyyat" qəzetində "Rəqabət inkişafın əsas amili kimi (müstəqil kənar audit aspektində)" başlıqlı məqaləsi;
- **22.08.2025 –** Auditorlar Palatasının İcraçı direktoru Səbuhi Gülməmmədovun "Xalq" qəzetində "Vaşinqton Bəyannaməsinin əks-sədası davam edir" başlıqlı məqaləsi;
- **10.09.2025 –** Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun və Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübrizə idarəsinin rəis müavini Afiqə Bayramovanın "Azərbaycan" qəzetində "Müstəqil audit qanunvericiliyi: tətbiq təcrübəsi və çağırışlar" başlıqlı məqalələri;
- **25.09-01.10.2025 –** Auditorlar Palatasının Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri Həbibə Məmmədovanın "İqtisadiyyat" qəzetində "Çirkli pulların yuyulmasına qarşı mübarizədə xarici təcrübə" başlıqlı məqaləsi;
- **30.10-05.11.2025 –** Auditorlar Palatasının Dövlət orqanları və qeyr-hökumət təşkilatları ilə iş şöbəsinin müdiri Elxan Qəmbərovun "İqtisadiyyat" qəzetində "Audit dövlətin maraqlarının müdafiəçisi kimi" başlıqlı məqaləsi;
- **13-26.11.2025 –** Auditorlar Palatasının Daxili auditoru Şəfiqə Əsgərovanın "İqtisadiyyat" qəzetində "Azərbaycanda daxili auditin formalaşması və inkişaf istiqamətləri: uğurlar, problemlər" başlıqlı məqaləsi.

Qeyd olunanlarla yanaşı il ərzində Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin müntəzəm məlumatlandırılması ilə əlaqədar Palatanın müvafiq strukturları tərəfindən hazırlanmış müxtəlif səpkili elanlar, müraciətlər, təlimatlar, tövsiyələr, metodik göstərişlər, şərhlərlə bərabər, eyni zamanda Palatanın və onun Şurasının iş planlarında, Palatanın iş planına əsasən tərtib edilmiş Plan-proqramlarda, Palata rəhbərliyinin əmrlərində, Sərəncamlarında və tapşırıqlarında icra olunan, təsdiq edilən və ictimaiyyətə çatdırılması zəruri hesab edilən materiallar istər Palatanın internet saytında, istərsə də sosial şəbəkələrdə yerləşdirilmişdir.

Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər vasitəsilə müntəzəm məlumatlandırılması istiqamətində işlər hazırda da Palatanın rəhbərliyi və struktur bölmələri tərəfindən həyata keçirilir.



**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI**


AZ1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi 35.

E-mail: audit-azerbaijan@audit.gov.az

www.audit.gov.az

Telefonlar: (+994 12) 465 65 35, (+994 12) 465 65 48